AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*    *№ 3 (1403), 22 - 24 yanvar 2019-cu il*    *Qəzet 2001-ci ildən çıxır.*



## “Bakı-2019”a hazırlıqla bağlı Koordinasiya Komissiyasının texniki görüşü keçirilib

İyulun 20-28-də Bakıda keçiriləcək Avropa Gənclər Yay Olimpiya Festivalına hazırlıqla bağlı görülmüş işlərə nəzər salmaq və gələcək addımları müzakirə etmək məqsədilə Koordinasiya Komissiyasının texniki görüşü keçirilib.

Görüşdə gənclər və idman naziri, “Bakı-2019” Təşkilat Komitəsinin sədr müavini Azad Rəhimov, Avropa Olimpiya Komitəsi Koordinasiya Komissiyasının sədri Corce Vişaçki və digər nümayəndələr iştirak ediblər.

İki gündür Bakıda səfərdə olan qonaqlar Azərbaycan hökumətinin Avropa Gənclər Olimpiya Festivalına hazırlıq istiqamətində gördüyü işlərin yüksək səviyyədə olduğunu bildirib, gələcək addımlarla bağlı fikir mübadiləsi aparıblar. Bakıda olduqları müddətdə qonaqlar Azərbaycan Milli İdman Tibb və Reabilitasiya İnstitutunda, Azərbaycan Milli Antidopinq Agentliyində və yarışların keçiriləcəyi bir sıra idman arenalarında olublar.

Görüşdə akkreditasiya prosesi, yarış cədvəlinə uyğun olaraq idmançıların arenalara vaxtında aparılıb-gətirilməsi, nəqliyyat, təhlükəsizlik, dopinq yoxlamaları, yarışa dair digər mühüm mövzular müzakirə edilib.

Avropa Gənclər Olimpiya Festivalının açılış mərasimi iyulun 21-də keçiriləcək. Bu günədək 49 ölkə yarışda iştirakını təsdiqləyib. Ümumilikdə Avropanın 50 ölkəsindən 3600-dən çox idmançı və texniki nümayəndə heyəti yarışa qatılmaq üçün ölkəmizə təşrif buyuracaq. On iki arenada idmanın on növü üzrə (bədii gimnastika, atletika, basketbol, velosiped, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol, güləş) keçiriləcək yarışlara ümumilikdə 2500-dən çox könüllü cəlb olunacaq.

## Ənənəvi “Zirve Awards” mükafatının təqdimat mərasimi olub

“AAAF Holdinq” şirkətinin beynəlxalq brendi - “Zirvə” Beynəlxalq İdman Klublarının ənənəvi “Zirve Awards” mükafatının təqdimat mərasimi keçirilib.

Tədbirdə Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, baş katibi Ağacan Abıyev, Azərbaycan Ağır Atletika Federasiyasının vitse-prezidenti Azər Əliyev və gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov iştirak ediblər.

*(ardı 2-ci səhifədə)*

## Olimpizm

### Etika Komissiyası araşdırmalara başlayıb

Beynəlxalq Olimpiya Komitəsinin (BOK) Etika Komissiyası Yaponiya Olimpiya Komitəsinin rəhbəri Tsunekadzu Takedenin korrupsiya əməli ilə bağlı araşdırmaya başlayıb. Bu barədə “İnside the Games” portalı məlumat yayıb.

BOK araşdırma məsələsində yaponiyalı idman məmurunun təqsirsizlik prezumpsiyası prinsipinə əməl etməyə çalışır.

Tsunekadzu Takede isə onun ünvanına heç bir ittiham qaldırılmadığını deyib: “Mənə qarşı heç bir ittiham qaldırılmayıb. Mənim haqqımda Fransanın “Le Monde” nəşrində” yazılanlar həqiqətə uyğun deyildir”.

Məlumat üçün bildirək ki, “Le Monde” bir müddət əvvəl yaponiyalı məmurun Tokionun olimpiada seçimində qalib gəlməsi üçün 2 milyon dollar rüşvət verdiyi barədə yazmışdı. Həmin məbləğin Beynəlxalq Atletika Federasiyasının (İAAF) sabiq prezidenti Lamin Diakın oğlu Papa Massat Diakın hesabına köçürülməsi xəbəri bu məlumatda öz əksini tapmışdı. Lamin Diak hazırda rüşvətxorluq üstündə saxlanılb və Fransada nəzarət altındadır.

### Həlledici qərar veriləcək

Rusiya Antidopinq Agentliyinin rəhbəri (RUSADA) Yuriy Qanus Beynəlxalq Antidopinq Agentliyinin (WADA) rəhbərinə məktub ünvanlayıb. Məktubda bildirilir ki, 100 mindən çox dopinq analizi ADAMS sistemi ilə aparılmayıb.

Bu fakt RUSADA-nın ötən il aparılan daxili yoxlaması nəticəsində məlum olub.

“Nəzərinizə çatdırırıq ki, ötən il 100 mindən çox dopinq yoxlaması ADAMS sistemi ilə aparılmayıb. İdarəmiz bu il səylə işləməyə, beynəlxalq dopinq təşkilatları ilə sıx əməkdaşlıq etməyə hazırdır”, - deyə məktubda bildirilir.

WADA bugünlərdə RUSADA-nın statusu ilə bağlı həlledici qərarını verəcək.

## Bakıya 8 Olimpiya mükafatçısı gələcək




Fevralın 16-17-də Bakı batut gimnastikası və tamblinq üzrə Dünya kuboku yarışlarına ev sahibliyi edəcək. Beynəlxalq turnir Tokio-2020 Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyır.

Yarışlarda 31 ölkədən 200-ə yaxın gimnastın iştirakı gözlənilir. İştirakçılar siyahısında titullu idmançıların yer alması batut gimnastikası və tamblinq üzrə Dünya kuboku yarışlarına marağı ikiqat artırıb. Gimnastlar üçün ilin vacib yarışlarından olan bu turnirdə Vladislav Qonçarov, Rozanna Maklennan, Ceyson Burinet, Donq Donq, Qao Ley, Dmitri Uşakov və Brioni Peyc kimi Olimpiya ulduzları mübarizə aparacaqlar.

Dünya kuboku yarışlarında Olimpiya ulduzlarından başqa, dünya və Avropa çempionatının mükafatçıları da yer alıblar. Təbii ki, titullu idmançıların iştirak edəcəyi yarış rəqabətin gərgin olacağından xəbər verir.

İştirakçılar siyahısında yer alan titullu idmançılar aşağıdakılardır:

Vladislav Qonçarov (Belarus) - Rio-2016, qızıl medalçı.

Rozanna Maklennan (Kanada)- London-2012 və Rio-2016, qızıl medalçı.

Ceyson Burinet (Kanada) - Pekin-2008, gümüş medalçı.

Dmitri Uşakov (Rusiya) - London-2012, gümüş medalçı.

Donq Donq (Çin) - London-2012, qızıl medalçı.

Gao Ley (Çin)- Rio-2016, bürünc mükafatçı.

Brioni Peyc (Böyük Britaniya) - Rio-2016, gümüş medalçı.

Dioqo Ganççinho (Portuqaliya) - Avropa çempionatı 2018, qızıl medal.

Vitsiani Benni (Avstraliya) -Yeniyetmələrin III Olimpiya Oyunları, bürünc mükafatçı.

Aleh Rabstau (Belarus)- DÇ-2018 - qızıl medalçı.

Hanna Qonçarova (Belarus) - Avropa çempionatı, gümüş medalçı.

Yana Pavlova (Rusiya) - DÇ-2018, bürünc mükafatçı.

Klarke Dominik (Avstriya) - DÇ- 2018, bürünc mükafatçı.

Pirmammad Aliyev (Qazaxıstan)- Asiya Oyunları 2018 - bürünc mükafatçı.

Qeyd edək ki, 2019 və 2020-ci illərdə Tokio-2020 Yay Olimpiya Oyunlarına batut gimnastikası üzrə təsnifat xarakterli 8 Dünya Kuboku yarışları təşkil ediləcək. Paytaxt Bakı bu kubok yarışlarından ikisinə (2019, 2020) ev sahibliyi edəcək.




AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

## Sağlam həyat tərzi hər birimizin haqqıdır

Səh. 3

## Anons

Nankin atletika üzrə “World Challenge” seriyalı yarışa ev sahibliyi edəcək Səh.2

*Güləş yığmaları təlim-məşq toplanışında* Səh.2

*Həyatını idmana həsr edən mütəxəssis* Səh. 5

*Azərbaycan Qran-Prisi sessiyalarının vaxtı açıqlanıb* Səh. 6



## Ənənəvi "Zirve Awards" mükafatının təqdimat mərasimi olub

*(əvvəli 1-ci səhifədə)*

Azərbaycan idmanının tanınmış simalarının, məşqçilərin, müxtəlif vəzifəli şəxslərin də daxil olduğu 150-yə yaxın qonağın iştirakı ilə təşkil edilmiş tədbirdə "Zirvə"nin ölkədaxili və beynəlxalq klublarının müxtəlif idman yarışlarındakı uğurları qiymətləndirilib. Doqquz nominasiya üzrə 30 mükafatın təqdim edildiyi mərasimdə "İlin komandası", "İlin klubu", "İlin məşqçisi", "İlin yarışı", "İlin hakimi", "İdmanın inkişafında göstərdiyi xidmətlərə görə", "Zirvə BİK-in təbliğində xidmətlərə görə", "İlin idmançısı", "Olimpiya ümidləri" nominasiyalarında qaliblər təltif edilib.

Azərbaycanın tikinti sektorunda özünəməxsus yeri olan və brendə çevrilən "AAAF Holdinq" idman obyektlərinin inşasında da böyük uğurlar əldə edib. Şirkətin beynəlxalq idman brendi isə "Zirvə" Beynəlxalq İdman Klubları - Zirve International Sport Clubs-dır. Azərbaycanla yanaşı, 11 ölkədə fəaliyyət göstərən klubların sinerjisi olan bu layihə dünyanın müxtəlif ölkələrində ağırlıqqaldırma idman növünə böyük töhfə verməkdədir. Əlliyə yaxın klub Azərbaycan, Rusiya, Gürcüstan, İran, Türkiyə, Moldova, İsrail, Ukrayna, ABŞ, Belarus, Polşa və Bolqarıstandan olan yerli idmançılar üçün ən yaxşı şərait yaratmaq, vahid bir idman bayrağı - Azərbaycanın "Zirvə" sözü altında birləşərək idman qələbələri qazanmaq üçün çalışır.

"Zirvə" Beynəlxalq İdman Klublarının ənənəvi "Zirve Awards" mükafatının təqdimat mərasimi məhz bu klubların il ərzində əldə etdikləri nailiyyətlərin qiymətləndirilməsi və fərqləndirilməsi məqsədini daşıyır. Tədbirdə "Zirvə" Beynəlxalq İdman Klublarının prezidenti Tofiq Heydərov, Çingiz Hüseynzadə və İsmayıl İsmayılov çıxış ediblər. Onlar ölkəmizdə idmanın gündən-günə inkişaf etdiyini, dövlət tərəfindən yaradılan şərait, diqqət və qayğı nəticəsində yeni-yeni uğurlar qazanıldığını qeyd ediblər.

Sonra mükafatlar təqdim edilib. Müxtəlif nominasiyalarda qalib olanlara xüsusi "Zirvə Awards" mükafatı verilib.

"Zirvə" BİK hər il müxtəlif yarışlarda nəticə göstərən idmançılara və onların məşqçilərinə mənzil sertifikatları təqdim edir. Son on il ərzində klubun 200-dən artıq üzvünə mənzillər verilib. 2018-ci ildə də beynəlxalq yarışlarda fərqlənən, sertifikat qazanmış idmançılara və onların məşqçilərinə münasibətdə də eyni addım atılıb. Mərasimdə onlara müvafiq sənədlər təqdim edilib. Qeyd olunub ki, 2019-cu ildə də bu ənənə davam etdiriləcək.

## II Avropa Oyunlarının bir obyekti yenidənqurma işlərindən sonra fəaliyyətə başlayıb

2019-cu ildə II Avropa Oyunlarının bir obyekti - marşal S.K.Timoşenko adına İdman-Atıcılıq Kompleksi yenidənqurma işlərindən sonra fəaliyyətə başlayıb.

Məxsusi bu hadisə ilə əlaqədar Belarus Respublikası Müdafiə Nazirliyinin rəsmi şəxslərinin iştirakı ilə təntənəli mərasim keçirilib.

Minskdə 1971-ci ildə tikilmiş bu obyekt Müstəqillik prospektində yerləşir və iki dəfə Sovet İttifaqı Qəhrəmanı Semyon Konstantinoviç Timoşenkonun adını daşıyır. Kompleksin mövcud olduğu illər ərzində burada çoxsaylı atıcılar yetişdirilib, həmin idmançılar dünya səviyyəli yarışlarda 30-dan çox qızıl medal qazanıblar. Yüksək standartlar səviyyəsində yenidən qurulmuş tir beynəlxalq turnirlər keçirməyə imkan verir. Güllə atıcılığı ustaları II Avropa Oyunları dövründə məhz burada forumun mükafatları uğrunda mübarizə aparacaqlar.



Yenidənqurma işlərindən sonra açılış günündə kompleksdə Belarus Kuboku uğrunda yarışlara start verilib. 2019-cu il mövsümünün kubok yarışlarının birinci mərhələsində ölkənin müxtəlif regionlarını təmsil edən 185 atıcı iştirak edir. Əlamətdar haldır ki, bu tədbir ölkənin milli komandasının ən güclü nümayəndələrinin diqqətindən kənarda qalmayıb.

Beş gün davam edəcək yarışlar ərzində iştirakçılar 50 metr məsafədə 3 vəziyyətdə kiçik çaplı tüfəngdən (kişilər və qadınlar), 25 metr məsafədə kiçik çaplı tapançadan (kişilər və qadınlar), 10 metr məsafədə pnevmatik tüfəngdən (kişilər, qadınlar və qarışıq komandalar), 10 metr məsafədə pnevmatik tapançadan (kişilər, qadınlar və qarışıq komandalar) atəş açmaqda ən güclülər müəyyən ediləcək. Yarışlar Hindistanda keçiriləcək Dünya Kuboku mərhələsi üçün seçim xarakteri daşıyır.

Minskdə II Avropa Oyunlarında güllə atıcılığı yarışlarının iştirakçıları 13 medal dəsti uğrunda mübarizə aparacaqlar. Proqramın Olimpiya növlərində qaliblər 2020-ci ildə Tokioda (Yaponiya) keçiriləcək Yay Olimpiya Oyunlarına kvota qazanacaqlar. 2019-cu il multiidman forumuna test tədbiri may ayında Belarusun paytaxtında keçiriləcək. Həmin tədbirdə xarici ölkələri təmsil edən atıcıların da iştirakı nəzərdə tutulur.

Qeyd edək ki, II Avropa Oyunları 2019-cu il iyunun 21-dən 30-dək Minskdə keçiriləcək. İdmanın 15 növü üzrə yarışlar dünyanın 50 ölkəsini təmsil edən 4 mindən çox idmançı 200 mükafat dəsti uğrunda mübarizə aparacaq.

Xatırladaq ki, 2015-ci ildə Azərbaycanda keçirilmiş birinci Avropa Oyunlarında ölkəmizin yığması qazandığı medalların sayına görə ikinci yeri tutub.

## Nankin atletika üzrə "World Challenge" seriyalı yarışa ev sahibliyi edəcək

Beynəlxalq Atletika Federasiyaları Assosiasiyası "World Challenge" seriyalı yarışların təqviminə yeni məkan - Çinin Nankin şəhərini əlavə edib. 2014-cü ildə Yeniyetmələrin II Yay Olimpiya Oyunlarına ev sahibliyi edən Nankində mayın 21-də "World Challenge" yarışları keçiriləcək.



Yarışın təqvimində də dəyişiklik edilib. Belə ki, yarış son 10 ildə ilk dəfə olaraq Braziliyada start götürəcək. Bu dəyişiklik Şanxayda keçiriləcək "Brilyant Liqa" və Osakada təşkil olunacaq "World Challenge" yarışlarının vaxtlarının toqquşmaması məqsədilə edilib. Mayın 18-də Braziliyada keçirilməsi nəzərdə tutulan "Grande Premio Brasil de Atletismo in Bragança Paulista" yarışının vaxtı aprelin 28-nə keçirilib.

Beləliklə, apreldə Braziliyada start götürəcək "World Challenge" yarışlarına sentyabrda Xorvatiyada yekun vurulacaq.

## "Judo Club-2012"nin yetirmələri respublika birinciliyini 6 medalla başa vurdular



"Sərhədçi" İdman Olimpiya Mərkəzində yeniyetmə (2002-2004-cü illər təvəllüdlü) cüdoçular arasında respublika birinciliyi keçirilib.

80 klubu təmsil edən 612 cüdoçunun mübarizə apardığı yarışda "Judo Club-2012"-nin yetirmələri də qüvvələrini sınayıblar. Respublika birinciliyi "Judo Club-2012" idman klubu üçün uğurlu nəticələrlə yadda qalıb. Klubun yetirmələri turniri 3 qızıl və 3 bürünc medalla başa vurublar. Birinciliyin qızıl medalarını kluba Nicat Məmmədli (-55 kq), Hüseyn Məmmədov (+100) və Zeynəb Məmmədova (-52 kq) qazandırıb. Məmmədrza Hacızadə (-55 kq), Məhəmməd Əhmədov (-81kq) və Aysu Rəhimova (-57 kq) isə bürünc medallara sahib çıxıblar. "Judo Club-2012" bu nəticələrlə komanda hesabında ikinci yeri tutub.

Klubun icraçı direktoru, Əməkdar məşqçi Hafis Hacıyev bu barədə məlumat verərkən əldə olunmuş nailiyyəti klubun rəhbərliyinin məşqçilərə və idmançılara göstərdiyi diqqət və qayğının, onlar üçün yaradılmış şəraitin nəticəsi kimi dəyərləndirib. Son yarışlarda "Judo Club-2012"nin idmançılarının fəallığı ilə seçildiyni qeyd edən Hafis Hacıyev bu qələbələrin davamlı olacağına inandığını bildirib.

Xatırladaq ki, "Judo Club-2012" 21 yaşınadək olan gənclər (U-21) arasında cüdo üzrə ənənəvi "Raquf Orucov Kuboku" beynəlxalq komanda turnirinin təşkilatçısıdır. Azərbaycanın ərazi bütövlüyünün qorunması uğrunda aprel döyüşlərində qəhrəmancasına həlak olmuş polkovnik-leytenant Raquf Orucovun və onun şəhid silahdaşlarının xatirəsinə həsr edilən turnir bu il üçüncü dəfə keçiriləcək. Turnirin hazırlıq işlərinə artıq başlanılıb.

* * *

Cüdoçularımız 2019-cu ilin ilk beynəlxalq yarışına yanvarın 24-də Təl-Əvivdə çıxacaqlar. Qran-Pri yarışlarında komandamızın heyətində 18 idmançı mübarizə aparacaq.

Kişilərin heyətində Orxan Səfərov (66 kq), Rüstəm Orucov, Hidayət Heydərov (hər ikisi 73 kq), Murad Fətiyev (81 kq), Məmmədəli Mehdiyev, Tural Səfquliyev (hər ikisi 90 kq), Elmar Qasımov (100 kq), Uşanqi Kokauri (100 kq-dan yuxarı) kimi təcrübəli idmançılar da yer alıblar.

Qızların yarışında medallar uğrunda Leyla Əliyeva (48 kq), Gültac Məmmədəliyeva, Buyankşiq Purevsuren (hər ikisi 52 kq), İçinkorloo Munxtsedev (57 kq) və İrina Kindzerska (78 kq-dan yuxarı) mübarizə aparacaqlar.

Turnirə yanvarın 26-da yekun vurulacaq.

## Güləş yığmaları təlim-məşq toplanışında

Yunan-Roma güləşi üzrə Azərbaycan yığması 2019-cu ilin ilk yarışlarına hazırlığı Bakıda davam etdirir. Yanvarın 7-dən Olimpiya Güləş Mərkəzində yeni ilin ilk təlim-məşq toplanışına start verən millimiz tam heyətlə hazırlıq keçir. Baş məşqçi Şaban Donat perspektivli yeniyetmə və gənc güləşçiləri də əsas komandanın hazırlıq prosesinə daxil edib. Bu toplanışda əsas diqqət fiziki hazırlığa ayrılıb. Belə ki, pəhləvanlarımız xalça üzərində məşq etməklə yanaşı, fitnes çalışmaları və kross qaçışında da iştirak edirlər.



Qarşıda yunan-Roma güləşçilərimizi iki ənənəvi yarış gözləyir. Pəhləvanlarımızın bir qismi yanvarın 24-25-də İranda "Təxti Kuboku"nda, bir qismi isə fevralın 1-3-də Türkiyədə Vehbi Əmrə və Hamit Kaplanın xatirə turnirində qüvvəsini sınayacaq.

Qadın güləşçilərdən ibarət yığmamız isə 2019-cu ildə ilk təlim-məşq toplanışını Türkiyədə keçir. Yanvarın 16-dan baş məşqçi Aslan Ağayev və məşqçi Rövşən Umudovun rəhbərliyi altında Kayseridə hazırlığa start verən millimiz ayın sonunadək burada əsasən fiziki hazırlığı yüksəltmək istiqamətində məşqlərini davam etdirəcək. Toplanış Türkiyə və Rumıniya yığmaları ilə birgə keçirilir. Qeyd edək ki, komandamız toplanışı başa vurduqdan sonra fevralın ilk günlərində Fransanın Nitsa şəhərində təşkil olunacaq "Qran-pri"də qüvvəsini sınayacaq.

* * *

Azərbaycan Güləş Federasiyasının (AGF) inzibati binasında hakimlər üçün iclas keçirilib. Hakimlər Kollegiyasının sədri Qərib Əliyev və AGF-nin İdman şöbəsinin müdiri Yaqub Məmmədovun rəhbərliyi altında baş tutan tədbirin əvvəlində bu yaxınlarda beynəlxalq kateqoriya alan Cəlal Bahadurov və Əli Babayevə vəsiqələri təqdim olunub. Onlarla birgə III dərəcəyə sahib çıxan Həbib Nurulu üzrlü səbəbdən yığıncaqda iştirak etmədiyindən beynəlxalq hakim vəsiqəsini daha sonra əldə edəcək. İclasda çıxış edən Qərib Əliyev hakimlərə müxtəlif məsələlərlə bağlı irad və tövsiyələrini çatdırdıqdan sonra qarşıdan gələn zona yarışlarında və Bakı birinciliyində, eləcə də, müxtəlif beynəlxalq turnirlərdə ədaləti qoruyacaq hakimlərin adlarını açıqlayıb. İclasda çıxış edən referilər də öz təkliflərini veriblər. Həmin təkliflərin AGF-nin rəhbərliyinə çatdırılacağı bildirilib.



## *Gəncədə bir sıra idman obyektlərinin tikintisi və təmir-bərpası nəzərdə tutulub*

2019-cu ildə Avropanın İdman Şəhəri olan Gəncədə bir sıra idman obyektlərinin tikintisi və təmir-bərpası nəzərdə tutulur. Təməli atılmış idman sarayının tikintisi cari ildə davam etdiriləcək. Həmçinin yeni futbol meydançalarının salınması, parklarda asudə vaxtın səmərəli təşkili və idmanla məşğul olmaq üçün qurğuların quraşdırılması, mövcud Olimpiya idman kompleksinin, şəhər stadionunun və Gəncə Təhsil İdman Mərkəzinin rekonstruksiyası planlaşdırılır. İnfrastruktur layihələr idmanın inkişafı və Gəncənin 2019-cu ildə Avropanın İdman Şəhəri titulunun təbliği istiqamətində aparılan işlərə dəstək verəcək.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

# Sağlam həyat tərzi hər birimizin haqqıdır

***Uşaq və yeniyetmələrin, gənc nəslin fiziki və mənəvi cəhətdən sağlam böyüməsi cəmiyyət üçün ən vacib şərtlərdən sayılır. Ölkəmizdə idmana böyük diqqət və dəstək var. Valideynlər övladlarının idmanla məşğul olmasına, uğurları ilə tanınmasına böyük həvəslə yanaşırlar. İstər oğlan, istərsə də, qızların idmanla məşğul olması üçün heç bir maneə yoxdur. Bunun nəticəsidir ki, Azərbaycan idmanını dünyada tanıdtıranlar arasında oğlanlarla bərabər, qız atletlərin sayı da az deyil. Dünya, Avropa və Olimpiya Oyunlarında, festivallarda və digər beynəlxalq yarışlarda iştirak edən xanım idmançılarımız böyük uğurlara sahib olublar.***





Tarixə nəzər salsaq görərik ki, elm və incəsənət sahəsində olduğu kimi, bədən tərbiyəsi və idman sahəsində də Azərbaycan qadınları çətin və mürəkkəb yol keçiblər. Vaxtı ilə bəzi qurumların rəhbərləri azərbaycanlı qadınların səhnəyə çıxmasına, yaxud idmanla məşğul olmasına hər vasitə ilə mane olurdular. Bu maneələri aradan qaldırmaq və bədən tərbiyəsi ilə məşğul olmaq hüququ qazanmaq üçün Azərbaycan qadınlarından böyük qüvvə, iradə və fədakarlıq tələb olunurdu.



Müstəqil və suveren Azərbaycanın bərqərar olması, gələcəkdə qüdrətli Azərbaycanı müdafiə edə biləcək sağlam gənc nəslin tərbiyə edilməsi müasir dövrün vacib vəzifələrindən biridir. Xalqımızın ümummilli lideri Heydər Əliyev özünün bir çox çıxışlarında bu vəzifəni idman fəalları və kollektivləri qarşısında bir vəzifə olaraq qoymuşdu. Fiziki tərbiyə sahəsində elmi tədqiqatlar aparmış görkəmli alimlər öz əsərlərində göstərmişlər ki, insanın fiziki kamilliyi onun əqli, mənəvi və estetik inkişafı ilə harmonik şəkildə əlaqədar olmalıdır.

Məlumdur ki, fiziki tərbiyənin xüsusi tapşırıqları idmançının məşq prosesinə tətbiq edildikdə fiziki qabiliyyətin inkişafına təsir edir. Bununla yanaşı belə bir iş idmançının mənəvi simasının formalaşmasında mühüm rol oynayır.

Hər hansı bir uşaq və yeniyetməni idmançı kimi o zaman yetişdirmək olar ki, onu mərdliyi aşkara çıxaran mürəkkəb bir şəraitdə qoyasan. O, öz dözümlülüyünü, mərdliyini, cəsarətini, zirəkliyini nümayiş etdirmək, fiziki imkanlarından düzgün istifadə etmək, qüvvəsini düzgün bölmək üçün yarış şəraitindən istifadə etməlidir. İdman yarışlarında idmançı daim fəallıq göstərir, qələbəyə can atır, zirəklik və qətiyyət nümayiş etdirir. Ona görə də idmana nahaq yerə "Mərdlik məktəbi" demirlər.

## İnadkarlıq və dözümlülük qələbəyə gedən yolu qısaldır

Müasir dövrdə idmançının estetik tərbiyəsinə, onda bədii zövqün formalaşmasına xüsusi diqqət yetirilməlidir. İdmanla estetik tərbiyənin inkişafı xüsusi əhəmiyyət kəsb edən məsələlərdən biridir. İdmanın bütün sahələri, onun hər hansı bir növü idmançının estetik tələbatını ödəmək, onda estetik zövqü tərbiyə etmək üçün böyük imkanlara malikdir. Gözəlliyi başa düşmək, onu hiss etmək, hərəkətlərin texnikasını dərindən duymaq, daxili aləmin hissiyyatını hərəkətin icrası ilə uyğunlaşdırmaq, həm idmançının özündə, həm də tamaşaçılarda dərin zövq oyadır. Xüsusilə, hərəkətlər musiqinin müşayiətilə icra edildikdə idman insanlara daha böyük zövq verir.

Təcrübələr göstərir ki, müəllim-məşqçi idmançı qızlarda gözəlliyi başa düşmək bacarığını inkişaf etdirməyə ilk məşğələlərdən başlamalıdır. Bu prosesdə sağlamlığın möhkəmləndirilməsinə, qamətin şuxluğuna, yaxşı yerişə xüsusi diqqət verilməlidir. Gənc qızlarda mənəvi sifətlərin, əqli keyfiyyətlərin və estetik zövqün formalaşdırılması, "Vətən, millət, islam" ruhunun təlqin edilməsi birbaşa tərbiyəçilərdən, hər şeydən əvvəl, məşqçilərdən, hakimlərdən, həmçinin idmançını əhatə edən kollektivlərdən asılıdır.

Müstəqil Azərbaycan Respublikasında fiziki cəhətdən daha sağlam, daha güclü, daha kamil və bacarıqlı, müasir qadınların tərbiyəsinə diqqət artırılmışdır.

Bu gün ölkəmizdə idmanın inkişafına böyük diqqət yetirilir. Bunun sayəsində idmançılarımız yüksək nailiyyətlər əldə edirlər. İdmançılar uğurdan əvvəl öz fiziki və mənəvi bacarıqlarını səfərbər etməlidirlər. Məlumdur ki, yarışda həmişə yüksək dərəcədə əsəb gərginliyi və maksimum fiziki yükün öhdəsindən gəlmək tələb olunur. Ona görə də yarışlarda iradi keyfiyyətləri üstün olan idmançılar fərqlənirlər. İdmançının qələbəyə nail olması üçün mütəmadi məşq, rejim, gərginliyə dözüm əsas sayılır. Bütün bunların nəticəsində mərdlik, iradə qüvvəsi, inadkarlıq, mətinlik və s. kimi xüsusiyyətlər formalaşır. Belə böyük dözümlüyə malik azərbaycanlı qızlar idman tariximizə öz uğurları ilə səs salıblar. Onlardan stend atıcılığı üzrə dünya və Avropa, Olimpiya çempionu Zemfira Meftaxetdinova, güllə atıcılığı üzrə Afina Yay Olimpiya Oyunlarının bürünc mükafatçısı İradə Aşumova, sambo idman növü üzrə 5 dəfə dünya və Avropa çempionu Zülfiyyə Hüseynova və başqalarını misal göstərmək olar.

Tarixdə ilk dəfə ölkəmizdə keçirilən Avropa Oyunları dünya idmanında yeni bir səhifə açdı. Azərbaycan idmançıları həmin yarışda uğurla çıxış etdilər. Milli komandamızın heyətində yer alan və mükafat əldə edən idmançılar arasında xanımlar öz bacarıqlarını nümayiş etdirdilər. Belə ki, qadın idmançılarımız 14 medal (3 qızıl, 5 gümüş, 6 bürünc) qazandılar. Qızıl medalçılar İrina Zaretska (karate), Mariya Stadnik (qadın güləşi), Anjela Doroqan (qadın güləşi), gümüş medalçılar Sevil Bunyatova (qılıncoynatma), Fəridə Əzizova (taekvondo), Nəzakət Xəlilova (sambo), Marina Durunda (bədii gimnastika, topla hərəkət), Səbinə Abdullayeva (paracüdo), bürünc medalçılar İlahə Qasımova (karate), Nataliya Sinişin (qadın güləşi), Patimat Abakarova (taekvondo), Anna Alimardanova(-boks), Sevinc Bunyatova (qılıncoynatma), Yana Alekseyevna (boks) rəqibləri ilə mübarizədə uğura sahib çıxıblar.

## Hər bir uğur böyük zəhmət və diqqətdən qaynaqlanır

Hazırda idmançı qadınların hüquqlarına, o cümlədən gender bərabərliyinə, qadın və kişi idmançılar arasında bərabərliyin təmin edilməsi üçün eyni imkanların yaradılmasına beynəlxalq miqyasında, o cümlədən respublikamızda da dəstək verilir. Qadın idman siyasəti sahəsində mühüm strategiyalar uğurla davam etdirilir. Azərbaycanda idmançı qadınların inkişafı, beynəlxalq və respublikamızın idman yarışlarında fəal iştirakı, qələbə qazanması və kütləvi bədən tərbiyəsi və idmana cəlb olunmasına xüsusi diqqət yetirilir. Ümummilli lider Heydər Əliyev siyasətinin uğurlu davamçısı, ölkə Prezidenti İlham Əliyev də bu strategiyaya sadiq qalaraq ölkədə gender balansının qorunub saxlanılması istiqamətində həm qanunvericilik bazasında, həm də praktiki yönümdə yeni islahatlara imza atıb. Prezident İlham Əliyev idmançı qadınların sayının artırılmasını prioritet məsələ kimi ön plana çəkib.

Məhz bu siyasi kursun məntiqi nəticəsidir ki, idmançı qadınlar yarışlarda fəal iştirak etməklə yanaşı, Olimpiya Oyunlarında da lazımi səviyyədə təmsil olunurlar. Son illərdə beynəlxalq yarışlarda təmsil olunan qadınların sayı artıb. Müqayisə üçün qeyd edək ki, IV İslam Həmrəylik Oyunlarında qadın idmançılarımız 19 medal (12 qızıl, 4 gümüş, 3 bürunc) qazanmışdılar. Müstəqillik dövründə Azərbaycan qadınları Olimpiya, dünya və Avropa çempionatlarında, I Avropa Oyunlarında və IV İslam Həmrəylik Oyunlarında 135 medal (56 qızıl, 31 gümüş, 48 bürünc)) əldə ediblər - (1991-2017-ci illər).







Müstəqillik illərindən əvvəl isə Azərbaycanın idmançı qadınları Olimpiya, dünya, Avropa çempionatlarında 31 (16 qızıl, 10, gümüş, 5 bürünc) medal qazanmışlar - (1920-1990).

Azərbaycanda idmanla məşğul olan qadınların sayı 1991-2005-ci illərdə ayrı-ayrı idman növləri üzrə 47791 nəfər təşkil edib. 2002-ci ildə ayrı-ayrı idman növləri üzrə 70647 nəfər qız məşğul olmuşdur.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasını 1933-2017-ci illərdə 3035 nəfər qadın bitirmişdir. Onlardan 1611-i azərbaycanlıdır. Təkcə üç il ərzində (2015-2017) 272 nəfər qadın məzun olmuşlar. Onlardan 248-i azərbaycanlıdır.

Bütün sahələrdə olduğu kimi, idmanda da gender bərabərliyi Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rəhbərliyinin əsas diqqət yetirdiyi məsələlərdəndir. ADBTİA-da təhsil alanların sayı ilbəil artır. ADBTİA-da idmana qadınlar arasında böyük maraq yaranıb. Bunun əsas səbəblərindən biri akademiyada təhsilin keyfiyyətinin artırılması, yeni proqramların yaradılması və müasir yönümlü təhsil sisteminə keçid edilməsi üçün kineziologiya, kinezioterapiya, idman farmakologiyası, dietologiya, idman psixologiyası, fiziki reabilitasiya, idman menecmenti, idman jurnalistikası və s. kimi yeni fənlərin tədris proqramına daxil edilməsidir. ADBTİA-nın rəhbərliyi tərəfindən qızların idmanda uğur qazanmaları üçün hərtərəfli diqqət və qayğı göstərilir. Akademiyanın rəhbərliyinin məqsədi ADBTİA-da qızların idmana cəlb olunması, sağlam həyat tərzinin təmin olunması, eləcə də ictimai həyatda onların rolunun daha da artırılması istiqamətində kütləviliyi təmin etməkdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dövlətimizi getdikcə möhkəmləndirmək naminə həyatımızın bütün sahələrində öz bilik, bacarıq və qabiliyyətini göstərə bilən insanların fiziki cəhətdən sağlamlığının təmin olunmasını cəmiyyətimizi təkmilləşdirməyin baş planı hesab edir. Azərbaycan DBTİA-nın pedaqoji fəaliyyət proqramına uyğun olaraq akademiyada fəaliyyətin islahatlar yolu ilə gedən inkişaf xəttini aşağıdakı kimi xarakterizə etmək olar. Hazırda pedaqoji fəaliyyət sahələrində nöqsanların elmi-metodik həllini tapmamağa mənəvi haqqımız yoxdur. Bunu bizdən xalqımız da, dövlətimizin təhsil siyasəti qarşısında cavabdehliyimiz də tələb edir. Odur ki, çalışdığımız sahədə bugünkü meyarlara uyğun gəlməyən cəhətləri islah etməkdən ötrü bir sıra amilləri mütləq nəzərə almalıyıq. Etiraf edək ki, bədən tərbiyəsi üzrə qadın mütəxəssislərin hazırlanması sahəsində işlər lazımi səviyyədə deyil. Qızların, qadınların bədən tərbiyəsi və idmana cəlb olunmasında bəzi nöqsanlar da var. Xüsusən, ümumtəhsil məktəblərində qızların bədən tərbiyəsi və idmana cəlb olunması dövrün tələblərinə cavab vermir. Sirr deyildir ki, hələ də bədən tərbiyəsi dərslərinə yerlərdə laqeyd münasibət bəslənilir. Bu işin yalnız pedaqoji yox, eyni zamanda sosial kökləri vardır: təbliğat işinin lazımi səviyyədə olmaması, bəzi valideynlərin dünyagörüşünün məhdudluğu, məktəb idman qurğularının, maddi-texniki bazanın müasir tələblərə cavab verməməsi və s.

Tələbələrin, müəllimlərin bilik və mədəni səviyyəsi ilə həmişə nümunə olmuş Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası elmi-nəzəri bilik qazanmaq və pedaqoji-metodik səriştəyə yiyələnmək cəhətdən də ön sıralarda getməyə çalışır.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının qarşısında qoyulan vəzifələrdən və təhsil islahatlarının dünya standartlarına uyğunlaşdırılması zərurətindən irəli gələrək hazırda akademiyada yenidənqurma və təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində müvafiq işlər aparılır.

Azərbaycanda gender bərabərliyinin təmin edilməsi və idmançı qadınların səlahiyyətlərinin genişləndirilməsi dövlət siyasətinin prioritetlərindən birini təşkil edir. İdmançı qadınlar üçün uyğun şəraitin yaradılması, ictimai-siyasi, sosial-iqtisadi həyatın müxtəlif sahələrində gender bərabərliyinin inkişaf etdirilməsi üçün mühüm addımlar atılır. Təbii ki, istənilən ölkədə, o cümlədən, azərbaycanda bu istiqamətdə həyata keçirilən tədbirlər idmançı qadınların daha azad və xoşbəxt olması, onların cəmiyyətin bütün sahələrində böyük uğurlar qazanması, bunun nəticəsində bəşəri dəyərlərin yüksəlməsi üçündür.

Hazırda idmançı qadınların hüquqlarına, o cümlədən gender bərabərliyinə, qadın və kişi idmançılar arasında bərabərliyin təmin edilməsi üçün bərabər imkanların yaradılmasına beynəlxalq miqyasda, o cümlədən, respublikamızda da önəm verilir. Qadın idman siyasəti sahəsində mühüm strategiyalar uğurla davam etdirilir, Azərbaycanda idmançı qadınların inkişafına, beynəlxalq və respublikamızın idman yarışlarında fəal iştirakına, qələbə qazanmasına, kütləvi bədən tərbiyəsi və idmana cəlb olunmasına xüsusi diqqət yetirilir.

***Dilqəm Quliyev***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*




# Savat üzrə açıq Respublika çempionatı keçirilib

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi "Gömrükçü" İdman Sağlamlıq Mərkəzinin təşkilatçılığı ilə 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş Savat İdman növü (Fransız boksu) üzrə açıq Respublika birinciliyi və çempionatı keçirilib. Tədbirdə qonaq qismində Milli Olimpiya Komitəsinin vitse-prezidenti Xəzər İsayev, Azərbaycan-Fransa Universitetinin direktoru Vazeh Əsgərov, Azərbaycan Gənclər və İdman Nazirliyinin nümayəndələri və müxtəlif federasiyaların təmsilçiləri iştirak ediblər.

Açılış mərasimində əvvəlcə 20 Yanvar şəhidlərinin xatirəsi bir



dəqiqəlik sükutla yad edilib. Ardından çıxış edən MOK-un vitse-prezidenti Xəzər İsayev, Azərbaycan-Fransa Universitetinin direktoru Vazeh Əsgərov 20 Yanvar hadisələrinin müstəqilliyə gedən yolda xalqımızın şərəf və ləyaqət salnaməsi olduğunu vurğulayıb. Canını qurban verən insanların daima xatırlanacağını bildirib və bu cür yarışların keçirilməsi ilə idman ictimaiyyətinin hər dəfə onlara öz ehtiramlarını sərgilədiklərini qeyd edib.

Savat və Şaolin Döyüş Sənətləri Federasiyasının prezidenti Rafiq Əliyev isə öz növbəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə idmançılara göstərdiyi diqqət və qayğıya görə təşəkkürünü bildirib. Federasiya prezidenti savat - fransız boksu idman növünün 2024-cü ildə Parisdə keçiriləcək olimpiya oyunlarında təmsil olunmaq yolunda sürətlə irəlilədiyini qeyd edib və bu yarışa qatılan yeniyetmə və gənclər arasında da olimpiya oyunlarında iştirak edənlərin olacağına əminlik ifadə edib. Rafiq Əliyev artıq federasiyanın ilk uğurunu qazandığını da diqqətə çatdırıb. Belə ki, Bakı 2021-ci ildə keçiriləcək Avropa çempionatına ev sahibliyi edəcək.

Açılış mərasiminin sonunda Xəzər İsayev Azərbaycan Savat və Şaolin Döyüş Sənətləri Federasiyasının ilk fəxri üzvü elan edilib və fəxri fərmanla təltif olunub. Ümumilikdə, yarışa 16 komandadan 140 idmançı qatılıb. Turnirdə Bakı, Abşeron, Astara və Tovuz savatçıları qüvvəsini sınayıb.

# "Arpaçay Open" beynəlxalq turniri uğurla başa çatdı

***Yanvarın 18-20-də Bakı İdman Sarayında Azərbaycan Gənclər və İdman Nazirliyi, Azərbaycan Milli Karate Federasiyasının dəstəyi və "Arpaçay" karate klubunun təşkilatçılığı ilə karate üzrə "Arpaçay Open" beynəlxalq turniri keçirilib. Turnir 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunub.***

***Əvvəlcə Azərbaycanın Dövlət himni səsləndirilib, 20 Yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***

Yarışın açılış mərasimində çıxış edən Azərbaycan Karate Federasiyasının prezidenti Yaşar Bəşirov qeyd edib ki, "Arpaçay Open" beynəlxalq turniri Bakıda artıq üçüncü dəfədir keçirilir: "İdman ölkəsi olan Azərbaycanda karatenin yüksək səviyyədə inkişafını xüsusi vurğulamaq istəyirəm. Böyük fəxrlə qeyd edərdim ki, karatenin Olimpiya Oyunlarının proqramına daxil edilməsində Azərbaycanın xüsusi rolu olub. Məhz karatenin Birinci Avropa Oyunlarında təmsil olunması onun Olimpiya proqramına salınması üçün bir təkan oldu. Dünyanın bir nömrəli karateçisi, beşqat dünya, on qat Avropa çempionu Rafael Ağayevdir. Bununla hər birimiz fəxr edə bilərik. Sevindirici haldır ki, turnirin nüfuzu getdikcə yüksəlir. Budəfəki yarışda iştirakçıların sayı 1100 nəfərə çatır. 10 xarici ölkənin komandası turnirdə medallar uğrunda mübarizə aparır".

Daha sonra çıxış edən ikiqat dünya çempionu Füzuli Musayev, Karate Federasiyasının baş katibi Mirhəsən Seyidov, Gürcüstan Karate Federasiyasının prezidenti Kaxa Basilia, Beynəlxalq Şotokan Kombat Karate Federasiyasının prezidenti Viktor Rabayev və başqaları karatenin inkişafında turnirin əhəmiyyətini qeyd ediblər. Bildiriblər ki, yarışın yüksək səviyyədə keçməsi üçün hər bir şərait yaradılıb.

Sonra yarışlar davam edib.

Açıq turnirdə uşaqlar, yeniyetmələr və gənclər mübarizə aparıblar.

Ölkəmizdə üçüncü dəfədir təşkil olunan turnirdə Azərbaycanla yanaşı, Türkiyə, Rusiya, ABŞ, Gürcüstan, İran, İsrail, Özbəkistan, Qazaxıstan, Ukrayna və Çexiyadan 1100-dək idmançı qüvvəsini sınayıb. Turnirdə fərdi






kata, 6-11 yaşlı uşaqlar arasında fərdi və komanda kumite, 12-13 yaşlı uşaqlar, 14-15 yaşlı yeniyetmələr və 16-17 yaşlı gənclərin müxtəlif çəkilərdə kumite yarışları keçirilib.

Beynəlxalq turnirə yanvarın 20-də yekun vurulub.

Yekun nəticəyə görə, birinci yeri "Qara Qaplan" idman klubunun (11 qızıl, 13 gümüş, 20 bürünc medal) karateçiləri tutublar. "Arpaçay" idman klubunun üzvləri (11 qızıl, 10 gümüş, 9 bürünc) turniri ikinci, hesabında 8 qızıl, 2 gümüş və 3 bürünc medal olan "SKİF AZERBAIJAN" isə üçüncü pillədə başa vurublar.

Turnirin qalibləri diplom və medallarla təltif olunublar.

Yarışlar başa çatdıqdan sonra federasiyanın və "Arpaçay" klubunun rəsmiləri yarışla bağlı fikirlərini jurnalistlərlə bölüşdülər.

## "Bu cür yarışlar uşaq və yeniyetmələrdə vətənpərvərlik hisslərini gücləndirir"

***Yaşar Bəşirov (Milli Karate Federasiyasının prezidenti):***

- 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş karate üzrə "Arpaçay Open" beynəlxalq turniri kütləvi yarışlardan biridir. Şəhidlərimizin xatirə turnirində karateçilərimizin fəal iştirakını xüsusilə vurğulamaq istəyirəm. Onların hər biri turnirdə qalib olmaq üçün böyük səy göstərir. Bu cür yarışlar uşaq və yeniyetmələrdə vətənpərvərlik hisslərini gücləndirir. Turnirdə müxtəlif yaş qruplarında 1000-dən artıq idmançı iştirak edir. Yarışın ildən-ilə nüfuzunun artması nəticəsində həm turnirdə iştirak edən xarici komandaların, həm də yarış iştirakçılarının sayı getdikcə çoxalır. Dünya Karate Federasiyasının qaydalarına uyğun keçirilən turnirin karateçilərimizin ustalıq səviyyələrinin artmasında, yarış təcrübələrinin zənginləşməsində rolunu da xüsusi qeyd etmək istəyirəm.

## "İdmançıların sayının artması turnirə marağın ildən-ilə artmasının nəticəsidir"

***Yavər Hüseynov ("Arpaçay" karate klubunun prezidenti):***

- "Arpaçay Open"də bu il rekord sayda idmançı mübarizə aparır. Beynəlxalq turnir artıq ölkəmizdə üçüncü dəfədir təşkil olunur. Müqayisə üçün bildirim ki, 2017-ci ildə keçirilən ilk turnirdə 450, ikinci turnirdə 650 idmançı iştirak etmişdi. Bu il isə yarışda 1100-ə yaxın karateçi müxtəlif yaş qruplarında qüvvəsini sınadı. Həm iştirakçı ölkələrin, həm də idmançıların sayının artması turnirə marağın ildən-ilə artmasının nəticəsidir. 2017-ci ildə təşkil edilən analoji turnirdə üç, ötənilki yarışda altı ölkədən gəlmiş karateçilər iştirak edirdilərsə, bu il artıq on xarici ölkəni təmsil edən komandalar bu yarışda mübarizə apardı. Vətən uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsi xalqımız üçün çox əzizdir. Çalışırdıq ki, Azərbaycan Milli Karate Federasiyası ilə birgə təşkil etdiyimiz yarış yüksək səviyyədə keçirilsin. Fikrimcə, biz buna nail ola bildik.



# Qəbələ şahmatçıları xatirə turnirində yarışıblar

Qəbələ rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə "20 Yanvar faciəsinin iyirmi doqquzuncu ildönümü"nə həsr edilmiş silsilə tədbirlər planına əsasən şahmat üzrə yeniyetmələr arasında xatirə turniri keçirilib. Qəbələ rayon Uşaq-Gənclər İdman-Şahmat məktəbində təşkil olunan tədbirin keçirilməsində məqsəd 20 Yanvar faciəsi haqqında iştirakçıların idman ustalıqlarının artırılması və təkmilləşdirilməsini təmin edilməsi, şahmatın kütləviliyinə nail olunması, rayonun yığma komandasının tərkibinin müəyyən edilməsindən ibarətdir.

Turnir iştirakçıları öncə şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Sonra tədbirin açılış mərasimində rayon Gənclər və İdman İdarəsinin rəisi Fəxri Soltanov və Qəbələ rayon Uşaq-Gənclər İdman-Şahmat məktəbinin direktoru Ədalət Əliyev çıxış edərək, 20 Yanvar faciəsinin Azərbaycanın müstəqilliyi yolunda xalqımıza qarşı törədilmiş ən qanlı səhifə olduğunu bildiriblər. Qeyd edilib ki, 29 il bundan əvvəl əliyalın Azərbaycan oğulları və qızları sovet qoşunlarına qarşı igidliklə mübarizə aparmış, xalqımızın qəhrəmanlıq tarixinə şərəfli səhifələr yazmışlar.

Turnirdə rayonun kənd, qəsəbə və şəhər məktəblərindən olan 54 nəfər yeniyetmə şahmatçı 8-10-12-14 və 16 yaş qruplarında dairəvi sistem üzrə gərgin oyun nümayiş etdiriblər. Turnirin yekununa əsasən, müvafiq yaş qrupları üzrə oğlanlar arasında İsmayıl Osmanlı, Tağı Tağıyev, Əmrah Əzizov, Ülvi Bəşirov, Fərhad Əliyev və qızlar arsında isə Selcan Rəşidova, Aysun Əzizli, Həqiqət Tağıyeva, Həcər Kərimova birinci yerə layiq görülüblər.

Hər yaş qrupunda I, II və III yeri tutan qaliblərə rayon Gənclər və İdman İdarəsinin diplomları təqdim edilib.

# "İmişli" İdman klubunun kikboksçuları uğurları ilə fərqlənirlər

Ölkəmizdə idmanın inkişafında klub və cəmiyyətlərin, idman məktəblərinin rolu danılmazdır. Bu idman ocaqlarında yetişən gələcəyin çempionları öz məşqçi-müəllimlərinin tövsiyyələrinə əməl edərək ölkədaxili və beynəlxalq yarışlarda uğurlu nəticələr əldə edirlər. Sevindirici haldır ki, indi təkcə paytaxtda deyil, respublikamızın müxtəlif bölgələrində də idmanla məşğul olanların sayı artır, gələcəyin potensiallı idmançılarının sırası genişlənir. Müxtəlif idman növləri üzrə keçirilən ölkə çempionatlarında və birinciliklərində böl-gə idmançıları öz fəallığı ilə seçilirlər. İmişli Olimpiya İdman Kompleksində fəaliyyət göstərən "İmişli" Kikboksinq Klubu da öz fəallığı və uğurları ilə ölkə idmanının inkişafına töhfəsini verir. Klubda 100-ə yaxın gənc bu idman növünün sirlərinə yiyələnir. Onların bu klubda idmanın sirlərinə yiyələnməsində Azərbaycan Kikboksinq Federasiyasının İmişli filialının sədri Əməkdar məşqçi Rəhman Hüseynov və məşqçi köməkçisi Zaur İsmayılovun böyük rolu var. Klubun idmançıları ötən il ölkə çempionatları ilə yanaşı, beynəlxalq turnirlərdə də iştirak ediblər. Bu yaxınlarda Azərbaycan Kikboksinq Federasiyasının və Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə kikboksinq üzrə "Baku Open-2018" beynəlxalq turniri keçirilib. Yarışda "İmişli" kikboksinq klubunun 5 idmançısı da qüvvəsini sınayıb. Klubun üzvləri turnirdə baş məşqçi Rəhman Hüseynovun rəhbərliyi altında mübarizə aparıblar.

150-dək klubdan 800-ə yaxın kikboksinqçinin iştirak etdiyi yarışda İmişli idmançıları uğurlu nəticələrlə yadda qalıblar. Klubun üzvləri turniri 2 gümüş və 1 bürünc medalla başa vurublar. Temur İbrahimli və Mirnihat Cəfərov gümüş medala layiq görülüblər. İsmayıl İsmayılov isə bürünc medala sahib çıxıb.



Klubun baş məşqçisi Rəhman Hüseynov turnir haqqında məlumat verərkən yarışın çox çətin və məsuliyyətli olduğunu bildirib. "5 idmançı ilə təmsil olunduğumuz yarışda 3 medal qazanmağımız böyük nailiyyətdir. Temur İbrahimli və Mirnihat Cəfərov finala kimi bütün döyüşlərini qələbə ilə başa vurdular. Digər idmançımız İsmayıl İsmayılov isə yarımfinalda rəqibinə məğlub olaraq üçüncü yerə sahib çıxdı. Ümumilikdə, kikboksinqçilərimiz "Baku Open-2018" turnirində 2 gümüş və 1 bürünc medal qazanaraq diplom və qiymətli hədiyyələrlə təltif olundular. 800-ə yaxın idmançı arasında belə bir nəticənin əldə olunması bizi sevindirməyə bilməz. Bizə göstərdikləri dəstəyə görə, Azərbaycan Kikboksinq Federasiyasının prezidenti, millət vəkili Adil Əliyevə, İmişli Olimpiya Kompleksi və İmişli Gənclər və İdman İdarəsinin rəhbərliyinə minnətdarlığımı bildirirəm", - deyə Rəhman Hüseynov qeyd edib.

Ötən il ölkəmizdə keçirilən turnirlərdə uğurlu nəticələr əldə etdiklərini deyən Əməkdar məşqçi yetirmələrinin qarşıda daha məsuliyyətli yarışlar gözlədiyini bildirib. Belə ki, İmişli idmançıları fevral ayında keçiriləcək kikboksinq üzrə Azərbaycan birinciliyində qüvvələrini sınayacaqlar. Klubun üzvləri bundan başqa təqvim planına əsasən bir sıra ölkədaxili və beynəlxalq yarışlarda iştirak edəcəklər. İnanırıq ki, R.Hüseynovun yetiməri bu yarışlarda da uğurla çıxış edib etimadı doğruldacaqlar.

# Həyatını idmana həsr edən mütəxəssis

***Saleh Heydərov 1951-ci il oktyabrın 26-da Yevlax şəhərində ziyalı ailəsində anadan olub. Həmyaşıdları kimi o da 1958-ci ildə Şuşa şəhər 1 saylı orta məktəbin birinci sinfinə gedib. 1968-ci ildə həmin məktəbin 10-cu sinfini bitirib.***



Saleh Heydərov füsunkar Şuşada boya-başa çatıb, oranın saf havasını, sərin bulaqlarının sularını dadıb. Təbiətin qoynunda uşaqlıq illərini keçirən Salehin idmana böyük marağı olub. Hələ məktəb illərində bədən tərbiyəsini sevən Saleh idmanın ağırlıqqaldırma, güləş, futbol, basketbol, stolüstü tennis və gimnastika növləri ilə məşğul olub. Onun ən çox sevdiyi idman növü isə basketbol olub. O, rayonda keçirilən basketbol yarışlarına maraqla baxar, onlar kimi oynamaq istəyərdi. Bəli, məhz bu istək və arzu onu 1969-cu ildə S.M. Kirov adına Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutuna gətirib çıxartdı. 1973-cü ildə həmin institutu müvəffəqiyyətlə bitirdi. Tələbəlik illərində özünü bacarıqlı idmançı kimi göstərən Saleh həmişə yarışlarda uğurla iştirak edər, institutun idman şərəfini layiqincə qoruyardı. Onun fiziki hazırlığı, boyunun hündür olması, çəldliyi, sürətli qaçışı, xüsusi ilə də hündürlüyə və uzununa tullanmağı mütəxəssislərin diqqətini cəlb etməyə bilməzdi. Tezliklə Salehi institutun basketbol üzrə mütəxəssisləri məşqlərə dəvət etdilər. Gərgin məşqlər öz bəhrəsini verdi. İnstitutdaxili yarışlar və idman cəmiyyətlərinin birincilikləri onun təcrübəsinin artmasına, fiziki hazırlığının inkişafına böyük təsir göstərdi. Çox keçmədi ki, onu institutun basketbol üzrə yığma komandasının heyətinə qəbul etdilər. Ümumittifaq idman təsnifatının qaydalarına görə Saleh tələbə ikən idman ustalığına namizəd normasını yerinə yetirdi. Tələbəlik illərində onun və komanda yoldaşlarının yarışlarda göstərdikləri nəticələrə görə institutun rəhbərliyi onları diplom, fəxri fərman, kubok və qiymətli hədiyyələrlə təltif edib.

Saleh Heydərov institutu müvəffəqiyyətlə bitirdikdən sonra, təyinatla Tərtər rayonunda 1 saylı məktəbdə bədən tərbiyəsi müəllimi işləyib. 1973-1974-cü tədris ili Saleh müəllimin məktəblə, şagirdlərlə əlaqəsinin başlanğıcı oldu. Lakin təlim prosesi heç də günün tələblərinə cavab vermirdi. İdman dərslərinin proqram üzrə keçirilməsi, vacib olan dərs avadanlıqlarının və idman alətlərinin çatışmazlığı, hətta idman zalının belə olmaması çətinliklər törədirdi.

Lakin Saleh müəllim çox keçmədi ki, şagird və müəllim kollektivinin köməyi ilə məktəbin ərazisində basketbol, voleybol meydançaları düzəltdirdi. Sonra atletika idman növünün tədrisi üçün 60-100 metr məsafəyə qaçış zolağı, uzunluğa və hündürlüyə tullanmaq üçün münasib yerlər hazırlandı. Gənc müəllimin iş fəaliyyəti məktəb rəhbərliyinin, şagird və valideyn kollektivinin ürəyincə oldu. Bu məktəbdə idman dərslərinə bu vaxta qədər barmaqarası baxanlar artıq bu fənnə təhsil prosesində heç də digər fənlərdən asan olmayan lazımi bir fənn kimi yanaşmağa başladılar. Saleh Heydərov məktəb bədən tərbiyəsi proqramı üzrə hər sinifdə yoxlama normativləri qəbul edərək şagirdlərdə vahid idman geyiminin olmasına da nail oldu. Saleh müəllim dərs proqramını yerinə yetirməklə bərabər sinifdənxaric və məktəbdənxaric bədən tərbiyəsi, idman işlərini də canlandırdı. Artıq məktəbdə idman növləri üzrə siniflərarası yarışların keçirilməsi, yoxlama normativlərinin ödənilməsi şagirdlər arasında canlanmaya səbəb oldu. Şagirdlərin idmana marağı get-gedə artırdı. Artıq məktəbin futbol, voleybol və basketbol komandaları məktəblilərin rayon birinciliyində çıxış edərək mükafatalayiq yerlər tuturdu. Lakin Saleh müəllim bu məsuliyyətli işini axıra kimi davam etdirə bilmədi. Tədris ilinin axırında onu bir illik hərbi xidmətə çağırdılar. O, hərbi xidmətini uzaq Almaniya Demokratik Respublikasında başa vurdu. Əsgəri xidmətdə Saleh Heydərov özünü əsl əsgər kimi göstərərək idman yarışlarında da iştirak edirdi. O, xidmət etdiyi hərbi diviziyanın idman şərəfini qoruyaraq sambo üzrə keçirilən yarışlarda II yerə çıxaraq I dərəcəli idman normasını ödəyə bildi. Saleh müəllim hərbi xidmətdən sonra doğma yurdu Şuşaya qayıdaraq 4 saylı orta məktəbdə bədən tərbiyəsi müəllimi kimi iş fəaliyyətinə başladı.

Bu məktəbdəki şərait Tərtər rayonundakı məktəblərin şəraitindən köklü surətdə fərqlənirdi. Burada uşaqlar üçün yaradılan idman infrastrukturu məktəbdə bədən tərbiyəsi dərslərini günün tələbləri səviyyəsində qurmağa imkan verirdi. Özündən əvvəl bu məktəbdə işləyən təcrübəli, öz peşəsinin vurğunu, metodist müəllim Tariyel Kazımovun rəhbərliyi altında işləmək Saleh Heydərova əlavə stimul vermişdi. Saleh müəllim də öz növbəsində bilik və bacarıqlarını dərs dediyi şagirdlərdən əsirgəmirdi. O, dərs deməklə bərabər ictimai əsaslar üzrə məktəbdə basketbol bölməsi yaradır, qızları və oğlanları məşqlərə cəlb edir və tez bir zamanda güclü komanda hazırlayıb. Tezliklə Saleh müəllimin hazırladığı komandalar rayon birinciliyinin qalibi olub. Hər iki komanda Dağlıq Qarabağ Muxtar Vilayətinin birinciliyində iştirak edib. 1978-ci ildə qızlar məktəblilər arasında vilayət çempionu olub. 1980-ci ildə isə Xankəndində oğlanlar arasında keçirilən məktəblilərin Dağlıq Qarabağ Muxtar Vilayətinin birinciliyində Saleh müəllimin yetirmələri I yeri tutublar. 1987-ci ildə isə DQMV-nin Ağdam şəhərində məktəblilərin basketbol üzrə keçirilən açıq birinciliyində Şuşa komandası birinci yerə sahib çıxıb.



***Saleh Hedərov məktəbin yığma komandası ilə birlikdə: ayaq üstə duranlardan sağdan birinci, Saleh Heydərov, ikinci, məktəbin direktoru Nurəddin Ağayev və soldan birinci, məktəbin idman müəllimi Cəfər Hüseynov***

Saleh Heydərov müəllimlik fəaliyyəti ilə bərabər öz üzərində çalışaraq idman ustalığını artırmaq üçün DQMV-nin yığma basketbol komandasının tərkibində 6 il iştirak edib. O, 3 il yığma komandanın tərkibində "Spartak" könüllü idman cəmiyyətinin Mərkəzi Şurasının respublika birinciliyinin çempionu olub. 1979-cu ildə Saleh Heydərovu "Spartak" cəmiyyətinin Mərkəzi Şurasının Respublika yığma komandasının tərkibinə daxil ediblər. Elə həmin ildə Saleh müəllimin hazırladığı şuşalılardan ibarət basketbol komandası IV yeri tutub. Komanda bu yarışda ilk dəfə çıxış etməsinə baxmayaraq Şəki, Gəncə, Mingəçevir, Cəlilabad və Tovuz rayonlarının komandalarına qalib gəlib. Saleh Heydərov müəllimlik, məşqçilik fəaliyyəti ilə kifayətlənməyib. O, həm də şəhərin ictimai işlərində fəal iştirak edib. Saleh müəllim 1986-cı ildən Azərbaycan Təhsil işçiləri Azad Həmkarlar İttifaqı Şuşa rayon Komitəsinin sədri seçilir. Lakin o, belə məsuliyyətli işi ilə yanaşı, basketbol məşqlərini də davam etdirib. Sonuncu dəfə 1989-cu ildə Zaqatalada məktəblilərin respublika birinciliyində oğlanlardan ibarət komanda müvəffəqiyyətlə çıxış edir və komandadan iki nəfər respublika yığma komandasının tərkibinə daxil edilib.

Saleh Heydərov bir sıra mötəbər yarışlarda hakimlik edərək respublika dərəcəli hakim adını alıb. O, eləcə də idman aləmində qazandığı nailiyyətlərə görə Azərbaycan Respublikasının Bədən Tərbiyəsi və İdman Əlaçısı adına layiq görülüb. Saleh Heydərov hazırda Azad Həmkarlar Birliyi Şuşa Rayon Komitəsinin sədri vəzifəsində işləyir.

***Əbülqasım Novruzov,***
***Şuşa Uşaq Gənclər İdman-Şahmat Məktəbinin direktoru***



# Balaxanı idmançıları respublika birinciliyini 3 medalla başa vurdular

Bu yaxınlarda "Sərhədçi" İdman Olimpiya Mərkəzində yeniyetmə cüdoçular arasında Azərbaycan birinciliyi keçirilib. Yarışda 80 klubdan 612 cüdoçu medallar uğrunda mübarizə aparıb. Turnirdə Balaxanı İdman Mərkəzinin də yetirmələri qüvvələrini sınayıblar. Balaxanı idmançıları Müşfiq Hüseynovun rəhbərliyi altında 4 idmançı ilə mübarizə aparıblar. İdman mərkəzinin yetirmələrindən Səlim Hüseynov (46 kq) birinci yerə layiq görülüb. Bu çəki dərəcəsində yarışan Əli Əliyev isə gümüş medala sahib çıxıb. Qızların yarışında isə Aytac Qardaşxanlı (57 kq) bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Balaxanı İdman Mərkəzinin komandası bu nəticələrlə Azərbaycan birinciliyində üçüncü yeri tutub.

Respublika birinciliyində fərqlənən yeniyetmə idmançılara medallar, Gənclər və İdman Nazirliyinin, Azərbaycan Cüdo Federasiyasının fəxri fərmanları və diplomları təqdim olunub.

Qeyd edək ki, yeniyetmə cüdoçuların ölkə birinciliyində fərqlənənlər milli komandanın heyətinə cəlb olunacaqlar.

# Yığmamızın üzvləri üçün maarifləndirici seminar

Karate üzrə milli komandamızın üzvləri üçün yeni mövsümqabağı yarış qaydalarında yeniliklər və görüşlər zamanı buraxılan səhvlərin aradan qaldırılması ilə bağlı maarifləndirici seminar keçirilib.

Yığmamızın üzvlərinin ötən il iştirak etdiyi yarışlardan hazırlanmış seminarı Hakimlər Komitəsinin sədri, beynəlxalq dərəcəli hakim Cahangir Babayev və media və ictimaiyyətlə işlər katibi Sənan Məhərrəmov təqdim ediblər.

Kumite üzrə baş məşqçi Bahəddin Kandaz, böyük məşqçilər Şahin Xudaverdiyev, Qurban Tağıyev və Denis Morozov komanda üzvləri ilə birgə müzakirə aparıblar. Seminar boyu idmançıları maraqlandıran mübahisəli döyüş epizodları və digər məqamlara aydınlıq gətirilib.

Artıq ənənə halı alan belə maarifləndirici seminarların idmançıların nəticələrinə müsbət təsir etdiyi diqqətə çatdırılıb. Qeyd edilib ki, olimpiadaya hazırlığın bir hissəsi kimi, hər yarışdan sonra bu mövzuda seminarın keçirilməsi qərara alınıb.

## Qılıncoynadanlarımız Moskvada güclərini sınayıblar

Qılıncoynatmanın sablya növü üzrə qadınlardan ibarət Azərbaycan yığmasının üzvləri Rusiyanın Novoqorsk şəhərindəki İlqar Məmmədov adına Qılıncoynatma Mərkəzində keçirilən "Güclülərin turniri" adlı ümumrusiya yarışlarında iştirak ediblər.

Təmsilçilərimizdən Sevil Bünyatova qrup mərhələsində keçirdiyi 6 görüşdən 3-də qalib gəlib. Sablyaçımız 1/16 finalda Kseniya İllarionovanı məğlub edib. Sevil Bünyatova 1/8 finalda Svetlana Karelovaya uduzub. S.Karelova digər idmançımız Səbinə Kərimovanı da yarışdan kənarlaşdırıb.

Qrupda keçirdiyi 6 görüşdən 4-də qalib gələn Sevinc Bünyatova isə 1/16 finalda Aleksandra Klimovaya uduzub.

Yekun sıralamada Sevil Bünyatova 12-ci, Sevinc Bünyatova 20-ci, Səbinə Kərimova isə yarışı 27-ci yerdə başa vurublar.

Turnir millimizin yanvarın 25-26-da ABŞ-ın Solt Leyk Siti şəhərində keçiriləcək dünya kuboku yarışına hazırlıq xarakteri daşıyıb.

## İkinci dövrəyə yekun vurulub

Qadın həndbolçuların Azərbaycan çempionatının onuncu turuna yekun vurulub. Son oyun günündə iki qarşılaşma keçirilib. "Qarabağ"-"Gənclərbirliyi" matçında nominal meydan sahibi çempionatın aşkar autsayderini məğlub edib - 37:19.

Baş mükafata əsas namizədlərdən sayılan "Azərsu" isə "İdman Akademiyası" ilə oyunda inamlı qələbə qazanıb. "Tələbələr" çox çalışsalar da, güclü rəqibin kəsərli həmlələrini dəf etməkdə çətinlik çəkiblər. Görüş 37:15 hesabı ilə "Azərsu"nun xeyrinə nəticələnib.

On oyundan hərəyə 18 xal toplayan "Azəryol" və "Azərsu" komandaları çempionatın şərikli liderləridir. "Qarabağ" 12 xalla 3-cü pillədə qərarlaşıb. Dördüncü pillənin sahibi Tbilisi "Olimpiya"sının aktivində 7 xal var. "İdman Akademiyası" 5 xalla beşinci yerdədir. Autsayder "Gənclər Birliyi"nin isə hələ də xalı yoxdur.

Yarışın üçüncü dövrəsinə yanvarın 24-də start veriləcək.

## Könüllülərin qeydiyyatına start verilib

Mayın 10-15-də Heydər Əliyev adına İdman-Konsert Kompleksində para-cüdo idman növü üzrə "Baku 2019 Gran-Prix" yarışları keçiriləcək. Yarışın yüksək səviyyədə keçirilməsinə köməklik göstərmək üçün Milli Paralimpiya Komitəsi könüllülərin qeydiyyatına start verib.

Yarışların keçirilməsinə könüllü dəstək olmaq istəyən gənc oğlan və qızlar Milli Paralimpiya Komitəsinin ofisinə müraciət edə bilərlər.

Məlumat üçün qeyd edək ki, yarışda 43 ölkədən 250 idmançı birincilik uğrunda mübarizə aparacaq.



## Şəhidlərimizin xatirəsinə həsr olunmuş basketbol turniri

Yanvarın 15-də 248 saylı tam orta məktəbdə rayon orta ümumtəhsil məktəbləri arasında 20 Yanvar faciəsinin 29-cu ildönümünə həsr olunmuş "20 Yanvar faciəsi tariximizin şərəf və qəhrəmanlıq səhifəsidir" devizi altında oğlanlar arasında basketbol turniri təşkil olunub. Yarış Binəqədi Rayon İcra Hakimiyyətinin dəstəyi, Binəqədi rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə keçirilib.

Gərgin və maraqlı idman mübarizəsi şəraitində keçən yarışda birinci yerə 115 saylı tam orta məktəbin komandası layiq görülüb. 283 saylı tam orta məktəbin komandası ikinci, 244 saylı tam orta məktəbin basketbolçuları isə üçüncü yeri tutblar.

# 20 Yanvar - ümümxalq hüzn gününün 29-cu il dönümü ilə bağlı anım tədbiri keçirilib

Yanvarın 19-da Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında 20 Yanvar - ümumxalq hüzn gününün 29-cu ildönümünə həsr olunmuş anım tədbiri keçirilib. Tədbirdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının professor-müəllim heyəti, gənclər təşkilatlarının üzvləri, fəal gənclər və tələbələr iştirak ediblər. Əvvəlcə şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Tofiq Quliyev adına 12 saylı musiqi məktəbinin şagirdlərinin və məzunlarının ifasında müvafiq xalq musiqi kompozisiyaları səsləndirilib.

Tədbir zamanı iştirakçılara Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Sərəncamı ilə əsaslı təmir edilən Şəhidlər xiyabanına həsr olunmuş "Müqəddəs Məkan" sənədli film nümayiş olunub.




## Xəbərlər

### Şəhər birinciliyinə yekun vurulub

"Alüminiumçu" İdman Evində 20 Yanvar şəhidlərinin xatirəsinə həsr edilmiş 2002-



2004-cü illər təvəllüdlü yeniyetmələr arasında yunan-Roma və sərbəst güləş üzrə şəhər birinciliyi keçirilib. İki gün davam edən yarışda müxtəlif çəki dərəcələri üzrə qaliblər müəyyənləşib.

Yarışın qalib və mükafatçıları şəhər Gənclər və İdman Baş İdarəsinin fəxri fərmanı və hədiyyələri ilə təltif olunublar.

* * *

Bakı şəhəri Cənub İdman Klubunun Boks zalında Dövlət Gömrük Komitəsinin İdman Sağlamlıq Mərkəzinin təşkilatçılığı ilə 20 yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş yeniyetmələr və gənclər arasında boks üzrə açıq birincilik keçirilib.

Birincilikdə astaralı azyaşlı boksçular qüvvələrini sınayıblar. Yarışda 4 boksçu ilə iştirak edən Astara idmançıları uğurlu çıxışla yadda qalıblar. Belə ki, Raman Mirzəzadə (30 kq), Əli Əliyev (36 kq), Amin Kərimov (32 kq) bütün rəqiblərinə qalib gələrək birinci yerə layiq görülüb. 42 kq çəki dərəcəsində çıxış edən Surac Kərimov isə ikinci yerə sahib çıxıb.

Azyaşlıları yarışa boks idman növü üzrə məşqçi-müəllim Elnur Bəşirov hazırlayıb.

Yanvarın 21-də Astara Rayon Gənclər və İdman İdarəsinin rəisi Ərçə Əliyev yarışda uğur qazanan boksçular və məşqçi ilə görüş keçirib, onları bu uğur münasibəti ilə təbrik edib.

* * *

Masallı Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Ərkivan qəsəbəsindəki futbol meydançasında keçirilən və 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş mini futbol üzrə rayon turniri başa çatıb. Üç gün davam edən və iki qrupda keçirilən yarışda 8 komanda qələbə uğrunda mübarizə aparıb. Birinci qrupda "Veteranlar", "Daşvənd", ikinci qrupda isə "Gənclər" və "Qala" komandaları turnirin yarımfinalına vəsiqə qazanıblar. Yarımfinal oyunlarında rəqiblərinə qalib gələn "Veteran" və "Daşvənd" komandaları finalda qarşılaşıblar. Həlledici oyunda "Veteranlar" daha inamlı oyun nümayiş etdirərək rəqibi üzərində 2:0 hesablı qələbə qazanıb və rayon turnirinin qalibi olub. Qaliblərə Masallı Rayon Gənclər və İdman İdarəsinin diplomları və hədiyyələr təqdim olunub.

* * *

Balakən rayon Uşaq-Gənclər İdman-Şahmat Məktəbində 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunan yeniyetmələr arasında şahmat turniri keçirilib. Turnirdə 3 yaş qrupunda 73 şahmatçı oğlan və qız mübarizə aparıb. Yarışdan əvvəl Vətənimizin azadlığı və müstəqilliyi uğrunda canlarından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra yarışa start verilib. Turnirə yanvarın 19-da yekun vurulub. Qaliblər diplomlarla təltif olunublar.

* * *

Masallı Rayon Gənclər və İdman İdarəsinin, Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının birgə təşkilatçılığı ilə 2005-2007-ci illər təvəllüdlü yeniyetmələr arasında keçirilən sərbəst güləş üzrə rayon birinciliyi başa çatıb. Birincilik 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunub. İki gün davam edən yarışda 100-ə yaxın idmançı 10 çəki dərəcəsində mübarizə aparıb. Qaliblər diplom, medal və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

* * *

Şəki Olimpiya İdman Kompleksində 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunan yunan-Roma güləşi üzrə şəhər turnirinə yekun vurulub. Şəhər gənclər və idman idarəsinin tədbirlər planına uyğun olaraq keçirilən



yarışda 50 güləşçi 6 çəki dərəcəsində mübarizə aparıb.

Turnirin açılışında idarənin rəisi Vüqar İskəndərov çıxış edərək, 20 Yanvar hadisələrinin xalqımızın azadlıq mübarizəsi tarixində şanlı səhifə olduğunu bildirib. Qanlı Yanvar faciəsinin xalqımızın qan yaddaşından heç vaxt silinməyəcəyi, həmin gecə canlarından keçən igid həmvətənlərimizin əziz xatirəsinin qəlblərdə əbədi yaşayacağı xüsusi vurğulanıb.

Turnirin yekununda müxtəlif çəki dərəcələrində qalib gələn güləşçilər diplomlarla mükafatlandırılıblar.

# Veyk-an-zee turniri davam edir

Xəbər verdiyimiz kimi Hollandiyanın Veyk-an-zee şəhərində şahmat üzrə "Tata Steel Masters-2019" turniri keçirilir. Komandamız bu yarışda Şəhriyar Məmmədyarov və Teymur Rəcəbovla təmsil olunur. Qrossmeysterlərimiz artıq turnirdə daha bir turu başa vurublar. Növbəti partiyada azərbaycanlı şahmatçı Şəhriyar Məmmədyarov hindistanlı qrossmeyster Vişvanatan Ananda məğlub olub. Digər təmsilçimiz Teymur Rəcəbov isə hollandiyalı Yorden Van Forestlə heç-heçə edib.



Qeyd edək ki, dünya üçüncüsü olan şahmatçımız Ş.Məmmədyarov 8 turun altısını heç-heçə başa vurub, ikisindən məğlub ayrılıb. Digər təmsilçimiz T.Rəcəbov isə 1 oyunda qalib gəlib, qalan partiyaları heç-heçə başa vurub.

* * *

Kişilər arasında şahmat üzrə Azərbaycan çempionatının beşinci turuna yekun vurulub. Beş turun nəticəsinə görə İsmayıl Şahəliyev və Ülvi Bacarani 4 xalla turnir cədvəlinə başçılıq edirlər. Liderlərdən cəmi yarım xal geri qalan Fərid Zeynalov isə üçüncü pillədə qərarlaşıb.



Yarış İsveçrə sistemi üzrə keçirilir və 9 turdan ibarətdir.

Turnirə yanvarın 24-də yekun vurulacaq.

# Kunq-fuçular açıq respublika turnirində yarışıblar

***Hövsan Olimpiya İdman Kompleksində Azərbaycan Kunq-fu Federasiyasının və "Şərur" idman klubunun birgə təşkilatçılığı ilə 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunan kunq-fu üzrə açıq respublika turniri keçirilib. Əvvəlcə Azərbaycanın Dövlət himni səsləndirilib, şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***

Açılış mərasimində çıxış edən federasiyanın prezidenti, polis mayoru Nurlan Aslanov 20 Yanvar faciəsinin Azərbaycan xalqının tarixi yaddaşına dərin hüzn, eyni zamanda, milli qürur kimi həkk olunduğunu diqqətə çatdırıb. Qeyd edib ki, həmin gün Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günüdür: "Bu, xalqımızın azadlıq səsini ucaltdığı şərəfli bir tarixdir. Bu tarixi yaşadıb yaddaşlara həkk etmək hər birimizin borcudur. Bugünkü bütün qələbələrimizi şəhidlərimizə həsr edirik!".

Sonra çıxış edən "Şərur" idman klubunun direktoru Ceyhun Əliyev yarışın təşkilində əsas məqsədin şəhidlərimizi yad etmək, eyni zamanda, perspektivli idmançıların aşkar edilərək gələcəkdə beynəlxalq yarışlara hazırlanmaq olduğunu bildirib. "Bu cür yarışların təşkili idmançıların potensialının aşkar edilməsində mühüm əhəmiyyət daşıyır. Məqsədimiz idmançılarımızın Azərbaycanı beynəlxalq yarışlarda yüksək səviyyədə təmsil etmələrinə nail olmaqdır", - deyə o əlavə edib.

Qeyd edək ki, turnirdə 300 idmançı birincilik uğrunda mübarizə aparıb. 10 çəki dərəcəsində seçilmiş finallar qala gecəsində peşəkar döyüşlərlə davam etdirilib.

Qaliblər kubok, medal və diplomla təltif ediliblər.

# Formula-1

## Azərbaycan Qran-Prisi sessiyalarının vaxtı açıqlanıb

2019-cu il Qran-Pri mövsümünün bütün sessiyalarının başlanma və başa çatma vaxtları elan edilib.

21 mərhələdən ibarət olan çempionat martın 17-də Avstraliyada start götürür və dekabrın 1-də Əbu-Dabidə başa çatır.



Qeyd edək ki, Azərbaycan Qran-Prisi aprelin 26-dan 28-dək Bakıda keçiriləcək. İlk cümə məşqi yerli vaxtla saat 13:00-14:30-da, ikincisi isə 17:00-18:30-da baş tutacaq. Şənbə yürüşünün vaxtı 14:00-15:00, təsnifatı isə 17:00-18:00-da olacaq. Bazar günü yürüşü 16:10-da başlayacaq və günəşin qürubu ilə - 19:32-də yekunlaşacaq.

* * *

Formula-1 yarışlarının Bakı mərhələsi avtoidman həvəskarlarının yaddaşında unudulmaz an kimi qalır. Mötəbər yarışa yüksək səviyyədə təşkilatçılıq vəzifəsinin öhdəsindən uğurla gələn Bakı adını bu idman növünün təqviminə əminliklə yazdırıb.

Bu fikirlər Pakistanın "DND" portalında dərc edilən məqalədə yer alıb.

Müəllif bildirir ki, Formula-1 Azərbaycan Qran-Prisi idman nöqteyi-nəzərindən ən yaxşı traslardan biridir. Bakı şəhər halqası Azərbaycan paytaxtının mərkəzində, Dənizkənarı Milli Parkın yaxınlığından keçir. Uzunluğu altı kilometrdən çox olan tras Formula-1 təqvimində ən uzun trekdir. Bakı treki özünün uzun düz zolağı ilə Formula-1 pilotları üçün əsl sınaq meydanına çevrilib.

Məqalədə qeyd olunub ki, builki Qran-Pri aprelin 26-28-də keçiriləcək.

* * *

Yeddiqat dünya çempionunun oğlu Mik Şumaxer mövsüm gedişində testlərdə iştirak etmək üçün "Ferrari" Akademiyasına daxil olub.

Reqlamentə görə, testlərin keçirildiyi dörd gündən ikisində iki Qran-Pridə iştirak etmiş gənc pilot işləməlidir. "Ferrari" bu testlərə Miki dəvət etmək qərarına gəlib.

"Ferrari" də, Mik Şumaxerin meneceri Sabine Kem də pilotla müqavilənin imzalandığını rəsmi surətdə təsdiq etməkdən boyun qaçırıblar.

Ötən mövsümdə Mik Şumaxer Formula-3 çempionu olub, bu il isə Formula-2-də iştirak edəcək.

* * *

2020-ci ildə Finlandiyanın paytaxtı Helsinkidən 110 kilometrlik məsafədəki avtodromda MotoGP dünya çempionatının debüt mərhələsi keçiriləcək.

Hazırda tikintisi davam edən avtodrom daha yüksək səviyyəli yarışların keçirilməsi üçün bütün tələblərə cavab verəcək. Bunu nəzərə alan Finlandiya Avtomobil İdmanı Federasiyası bu ölkədə Formula-1 dünya çempionatı mərhələsinin keçirilməsi imkanlarını araşdırır.

Federasiya rəhbəri Tatu Lexmuskallio bildirib ki, avtomobil idmanı sahəsində Finlandiyanın geniş təcrübəsi var. Son illər fin yürüşçülər Formula-1 və WRC yarışlarında digər ölkələrin təmsilçilərindən daha çox titul qazanıblar. Ölkədə uğurlu və maraqlı idman yarışlarının təşkili sahəsində də yaxşı ənənə mövcuddur.

Finlandiyanın 150 min tamaşaçı yerlik "KymiRing" avtodromu 2019-cu ilin avqustunda avtomobil idmanı ilə məşğul olanların sərəncamına veriləcək.

* * *

"Force India"nın sabiq pilotu, hazırda "Mersedes"in ehtiyat yürüşçüsü Esteban Okon çıxışları arasındakı məcburi fasilələrlə bağlı məyus olduğunu etiraf edib. Fransalının sözlərinə görə, əgər 2020-ci ildə ona Formula-1-də yer olmasa, pilot digər seriyalarda çıxış etməyi sınayacaq.

S.Okon deyib: "Mən dünya çempionu olmaq istəyirəm. Bu, mənim məqsədim və arzumdur. Əlbəttə, 2019-cu il çempionatında iştirak etməməyimdə yaxşı heç nə yoxdur. Lakin mən əvvəlki kimi yenə də diqqətimi Formula-1-də cəmləşdirmişəm və düşünürəm ki, bu, düzgün seçimdir. Əgər 2020-ci ildə əsas pilot yeri tapa bilməsəm, hansısa digər yerə keçə bilərəm, çünki mənə trasda işləməyi davam etdirmək lazımdır.

2019-cu ilin planlarına gəldikdə, mən hər mərhələdə iştirak edəcəyəm. Mənim bir və ya iki mərhələyə qayıda biləcəyim təqdirdə bütün baş verənlər barədə məlumatım olmalıdır. Heç vaxt bilmək olmaz ki, gələcəkdə nə olacaq".

# FUTBOL

## Çempionatımız 20 pillə geriləyib

Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyası (İFFHS) 2018-ci ilin yekunlarına əsasən dünyanın milli çempionatlarının reytinq siyahısını dərc edib.

Topaz Premyer Liqası 306 xalla dünya reytinqində 70-ci pillədə qərarlaşıb. Çempionatımız 2017-ci illə müqayisədə 20 pillə geriləyib.

Qeyd edək ki, siyahıya 1256 xalla İspaniya La Liqası başçılıq edir. İngiltərə 1050 xalla 2-ci, Braziliya 1043 xalla 3-cüdür.



## Futbol hakimləri Mingəçevirdə bir araya toplaşıblar

Mingəçevirdə təlim-məşq toplanışında olan futbol hakimləri üçün danışılmış oyunlarla bağlı seminar keçirilib.

UEFA-nın danışılmış oyunlarla bağlı Azərbaycan üzrə nümayəndəsi Seymur Səlimli "Hakim olaraq dürüstlük məsələləri və danışılmış oyunlar haqqında nələri bilməlisiniz?", "Əsas məqsəd sizi və futbolu qorumaqdır" mövzularında çıxış edib, İdman Yarışlarının Manipulyasiyası haqqında Konvensiya, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə və Bədən Tərbiyəsi və İdman haqqında Azərbaycan Respublikasının Qanununa bir sıra əlavə və dəyişikliklər, İntizam Komitəsinin İntizam Məcəlləsi haqqında məlumat verib.

Maarifləndirici və hesabat xarakterli təqdimatla çıxış edən S. Səlimli hakimlərin suallarını cavablandıran zaman bildirib ki, bu cür neqativ hallarla və ya şübhəli məqamlarla qarşılaşdıqda AFFA-nın saytına əlavə edilmiş linkə daxil olub və bu haqda məlumat vermək lazımdır.

## FİFA prezidenti Qətərə şərik axtarır

Futbol üzrə 2022-ci ildə təşkil olunacaq dünya çempionatında iştirakçı komandaların sayı artarsa, mundialın bəzi oyunları bu yarışa ev sahibliyi edən Qətər Dövlətinə yaxın ölkələrdə keçirilə bilər. "Magrib Arab Press" (MAP) xəbər agentliyi xəbər verir ki, bu sözləri FİFA prezidenti Canni İnfantino deyib.

O, FİFA-nın Mərakeşdə keçirilən beynəlxalq sammitində mətbuata açıqlamasında bildirib: "2022-ci ildə keçiriləcək dünya çempionatında iştirakçı komandaların sayını 48-ə çatdırmaq barədə razılıq əldə olunsa turnirin bəzi matçları Qətərə yaxın ölkələrdə oynanıla bilər".

C.İnfantino dünya çempionatının planlaşdırıldığı kimi, noyabrın 21-dən dekabrın 18-dək keçiriləcəyini deyib. FİFA prezidenti bildirib ki, Qətərdəki dünya çempionatında iştirakçı ölkələrin sayının artırılması məsələsi hələ də müzakirə olunur və ali futbol qurumu bununla bağlı yekun qərar qəbul edəcək.

## Ən güclülər rəqiblərini tanıdılar

Futbol üzrə İspaniya kubokunda 1/4 finalın püşkü atılıb. Bu mərhələdə "Real" - "Jirona" "Xetafe" - "Valensiya", "Sevilya" - "Barselona" "Espanyol" - "Betis" cütünün qalibi mübarizəni davam etdirəcək. Qeyd edək ki, 1/4 finalın ilk oyunları 22-24 yanvar, cavab görüşləri isə 29-31 yanvar tarixlərində keçiriləcək.



## Futbolçu anasından razılıq alsa...

"Barselona" heyətinə qatmaq istədiyi PSJ-nin üzvü Adrien Rabyonun transferindən imtina edə bilər. Buna səbəb uzunmüddətli danışıqlara baxmayaraq, hələ də fransalı futbolçunun anası və meneceri Veronika Rabyo ilə razılıq əldə olunmamasıdır.

V. Rabyonun eyni zamanda digər Avropa klubları ilə də danışıq aparması kataloniyalıları narazı salır.

İspan klubunun nümayəndələri qarşıdakı həftə sonuncu dəfə yarımmüdafiəçinin özü və anası ilə bir araya gələcəklər. Əgər bu dəfə də tərəflər razılığa gələ bilməsələr, Kataloniya təmsilçisi Rabyo ilə danışıqlara son qoyacaq.

Qeyd edək ki, Rabyo PSJ ilə müqaviləsini yeniləmədiyi üçün əvəzedici komandaya göndərilib.

## "Real" yalnız "Mançester Yunayted"dən geri qalır



UEFA 2017-ci ildə ən çox gəlir əldə edən klubların siyahısını açıqlayıb. Avropanın ən yaxşı 710 futbol klubu 20,11 milyard avro gəlir əldə edib. Bu barədə məlumatlar UEFA-nın hesabatında yer alıb. Bildirilir ki, 2018-ci ildə klubların ümumi gəliri 1,6 milyard avrodan çox artıb. Avropanın ən yaxşı 30 klubun gəlirləri isə 7 faiz artaraq 9,7 milyard avroya çatıb.

İngiltərənin "Mançester Yunayted" klubunun gəliri 2016-cı ilə nisbətən 13 milyon avro aşağı düşüb. Buna baxmayaraq, İngiltərə təmsilçisi 676 milyon avro gəlirlə ilk pillədə qərarlaşıb. Mançester təmsilçisindən 1 milyon avro az gəlir əldə edən İspaniyanın "Real Madrid" klubu isə ikinci sırada yer alıb.

Növbəti sıralarda qərarlaşan "Barselona" (İspaniya), "Bavariya" (Almaniya), "Mançester Siti" (İngiltərə), PSJ (Fransa), "Arsenal", "Liverpul", "Çelsi" (hamısı İngiltərə) və "Yuventus" (İtaliya) futbol klublarının gəlirləri isə 400 milyon avrodan çox olub.

Ümumi gəlirlərin dörddəbir hissəsi İngiltərə Premyer Liqası klublarının payına düşür. Onlar 5,3 milyard avro qazanıblar. İspaniya La Liqasının klubları 2,9 milyard avro, Almaniya Bundesliqasının komandaları 2,8 milyard avro, İtaliya A Seriyasının təmsilçiləri 2,2 milyard avro, Fransa çempionatının klubları isə 1,6 milyard avro gəlir əldə ediblər.

### Kataloniyalılar təkcə La liqada lider deyil

"Barselona" 2018-ci ildə sosial şəbəkələrdə ən çox izləyiciyə sahib olan futbol klubu seçilib. Ötən il İspaniya təmsilçisinin "İnstagram"da 989 milyon, "Facebook"da 130 milyon və "Twitter"də 70 milyon izləyicisi olub. "Barselona"nın "YouTube" kanalı il ərzində dünyanın bütün futbol klubları ilə müqayisədə daha çox baxış sayı toplayıb. "Youtube" kanalında "Barselona"nın videolarına 271 milyon dəfə baxış olub. Ümumilikdə sosial şəbəkələrdə klubu izləyənlərin sayı 1 milyard 189 milyon nəfərdir. Bu göstəricilər üzrə Avropa klubları arasında sonrakı yerlərdə qərarlaşan "Real Madrid"in 703 milyon, "Mançester Yunayted"in isə 647 milyon izləyicisi var.

### İspan mütəxəssisdən futbolçulara qadağa

Nizam-intizama ciddi önəm verən "Mançester Siti"nin baş məşqçisi Xosep Qvardiola növbəti maraqlı addımı ilə diqqət çəkib. Britaniya mətbuatında yayılan xəbərlərə görə, ispan mütəxəssis futbolçulara saç geli, təraşdan sonra üz kremi və nəmləndirici losyonlardan istifadəni qadağan edib. Onun fikrincə, idmançılar diqqətini saç düzümlərinin görünüşünə deyil, nəticəyə yönəltməlidirlər. Qeyd edək ki, "Mançester Siti" 22 turdan sonra 53 xalla 2-ci pillədə qərarlaşıb. Turnir cədvəlinə isə 57 xalla"Liverpul" başçılıq edir.

### İtaliyalılar fransızlardan 120 milyon avro tələb edir

İtaliyanın "Napoli" futbol klubu yarımmüdafiəçisinə görə, Fransanın PSJ komandasından 120 milyon avro tələb edir.

Fransa təmsilçisi "Napoli"nin futbolçusu Markes Allanı heyətinə cəlb etmək niyyətindədir. Neapol klubu isə braziliyalı oyunçunun transferindən 120 milyon avro gəlir əldə etmək istəyir. Markes Allan ilə İngiltərənin "Mançetser Siti" klubu da yaxından maraqlanır.

Qeyd edək ki, Markes Allan 2015-ci ildən "Napoli" klubunun şərəfini qoruyur. Onun "Napoli" ilə müqaviləsi 2023-cü ilədək nəzərdə tutulub. O, cari mövsümdə 25 oyunda meydana çıxıb, onların ikisində məhsuldar ötürmə ilə yadda qalıb.

### Appenin futbolunda "təhlükəli fikir"

İtaliya Futbol Federasiyasının prezidenti Qabriyele Qravina bildirib ki, irqçilik hallarına görə matçların dayandırılması proseduru sadələşdiriləcək. Ölkənin daxili işlər naziri Matteo Salvini isə daha əvvəl bildirib ki, oyunların dayandırılması ideyasını "təhlükəli fikir" hesab edir.

Q.Qravina deyib: "Mən nazirin rəyinə hörmətlə yanaşıram, lakin federasiya FİFA və UEFA-nın reqlamentlərinə riayət etməlidir. Biz İcraiyyə Komitəsinin növbəti iclasında matçların dayandırılması prosedurunu sadələşdirmək niyyətindəyik".

"La Gazzetta dello Sport" nəşri Q.Qravinanın bu sözlərini sitat gətirib: "Diktor stadionda müvafiq elanı edəndən sonra matç müvəqqəti dayandırılacaq, oyunçular isə mərkəzi dairəyə toplaşacaqlar. Əgər tamaşaçıların hay-küyü davam etsə, komanda soyunub-geyinmə otağına yollanacaq. Matçın davam etməsi və ya dayandırılması barədə qərar stadionun təhlükəsizlik xidmətinin əməkdaşları tərəfindən qəbul ediləcək".

### "Bavariya" Dortmunddan futbolçu ala bilməyəcək

Almaniyanın "Borussiya Dortmund" klubu "Bavariya"ya futbolçu satmayacaq. "Bild" nəşrini məlumatına



görə, bu barədə Dortmund təmsilçisinin rəhbəri Rayxard Raybal klubun son iclasında bildirib. Belə ki, "Borussiya" klubu Almaniya Bundesliqasında qızıl medallar uğrunda "Bavariya" ilə mübarizə aparmaq istəyir.

Qeyd edək ki, "Borussiya Dortmund" klubu bir neçə gün əvvəl gənc oyunçusu Kristian Pulişiçi "Bavariya" klubu istədiyi halda məhz İngiltərənin "Çelsi" komandasına satmağa qərar vermişdi.

## Qutuda gizlənib UEFA-nı aldadan portuqaliyalı "kələkbaz"

Bir müddət öncə "Mançester Yunayted"dən istefaya göndərilən Joze Mourinyo "beİN Sports" telekanalına geniş müsahibəsində maraqlı fikirlər səsləndirib. Portuqaliyalı mütəxəssis "Çelsi"də işləyərkən 2004/2005 mövsümündə Çempionlar Liqasının 1/4 final mərhələsinin "Bavariya" ilə cavab oyununda UEFA nümayəndələrini aldatdığını etiraf edib.

Qeyd edək ki, qitə futbol qurumu turnirin 1/8 finalının "Barselona" ilə cavab matçında (4:2) qeyri-etik hərəkətinə görə Mourinyonu diskvalifikasiya etmişdi. Belədə təcrübəli mütəxəssis 1/4 final mərhələsinin "Bavariya" ilə hər iki oyununu buraxmalı idi. O, komanda ilə əlaqə saxlaya və paltardəyişmə otağına girə bilməzdi. Yalnız VİP-lojada əyləşməyinə icazə verilmişdi. Londonda keçirilən ilk oyunda Mourinyonu tribunada görən olmadı. Əvəzində isə köməkçisi Ruy Fariyanın başındakı papaq diqqət çəkmişdi. Sonradan Britaniya mətbuatı onun qulağındakı qadağan olunmuş qulaqcığı gizlətmək üçün papaqda oturduğunu iddia etmişdi. Qapıçı məşqçisi



Silvinyo Louro isə tez-tez şübhəli şəkildə paltardəyişmə otağına qaçır və kağız parçaları ilə geri qayıdırdı.

"Çelsi" rəsmiləri və Mourinyo uzun müddət səylə bu məsələylə bağlı suallardan yayındılar. Nəhayət, Joze həmin gün olanları "beİN Sports"un canlı efirində açıqlayıb: "Bəli, mən həqiqətən, qutuda idim. Bu ideyanın ağlıma necə gəldiyini xatırlamıram. Oyunçularımla birlikdə olmalı idim və bunu etdim. Paltardəyişmə otağına təxminən gündüz saat 12-də gəldim. Oyun isə 19:00-dan tez başlamayacaqdı. Məni heç kim görmədi, paltardəyişmə otağında oturub, komandanın gəlməsini gözlədim.

Amma bir problem var idi: stadiondan necə çıxacaqdım? İnzibatçımız Stüart məni bu böyük metal qutuya qoydu. Qapağı isə bir az açıq saxladı ki, nəfəs ala bilim. Amma Stüart geyinib-soyunma otağından çıxdıqdan sonra UEFA nümayəndələri onun arxasınca getdilər. Onda o, qutunu tam bağladı. Nəfəs ala bilmirdim. Qapağı açanda isə az qala ölürdüm. Tam ciddiyəm".

Qeyd edək ki, həmin qarşılaşmada "Çelsi" "Bavariya"ya 4:2 hesabı ilə qalib gəlmişdi. Münhendə keçirilən cavab matçında 2:3 hesablı məğlubiyyətə baxmayaraq, London klubu yarımfinala yüksəlmişdi.

# Dünya idmanı





## "Revanş görüşü nəyə lazımdır?"

Yüngül çəkidə UFC çempionu Həbib Nurməhəmmədovla irlandiyalı Konor Makqreqor arasında revanş döyüşü baş tutmaya bilər.

Rusiyalı idmançı təkrar döyüşə çıxmaq istəmədiyini bildirib. O, "TMZ Sports"a açıqlamasında irlandiyalı idmançı ilə yenidən qarşılaşmağın gərəksiz olduğunu deyib: "Revanş görüşü nəyə lazımdır? Konor ona qalib gəldiyim döyüşdən əvvəl də çox danışırdı. Amma biz rinqə çıxandan sonra heç nə edə bilmədi".

Xatırladaq ki, Həbib Nurməhəmmədov ötən ilin oktyabr ayında Las-Veqasda keçirilən döyüşdə Konor Makqreqora qalib gəlib.

## Paraşütdən tullanmağa söz verib

Fransa prezidenti Emmanuel Makron 11-ci Paraşüt Briqadasının qarşısında etdiyi çıxışla gündəmə gəlib.

O, paraşütçülərin təlimlərindən ilham aldığını deyib və bir gün paraşütlə tullanacağına söz verib.

Makron bunu baş nazir Eduard Filipplə birlikdə həyata keçirəcəyini deyib.

## Güzgüyə görə



Qazaxıstanın ən titullu idmançısı Denis Teni öldürməkdə günahkar bilinən şəxslər 19 il azadlıqdan məhrum ediliblər.

Ötən il iki nəfərlə mübahisə zamanı bıçaqlanan fiqurlu konkisürən xəstəxanada dünyasını dəyişmişdi. Onun avtomobilinə zərər vurduqları üçün əks tərəflə əlbəyaxa olan Olimpiya mükafatçısına endirilən bıçaq zərbələrindən sonra hadisə yerindən qaçan iki nəfər tezliklə tutulmuşdu. Məhkəməyə çıxarılan cinayətkarların Tenin avtomobilinin güzgüsünü oğurlamaq istədiyi, bu zaman 25 yaşlı idmançının hadisə yerinə gələrək, onlara mane olmağa çalışdığı məlum olub.

## Ronaldo xərçəng xəstəsi olan körpəni ziyarət etdi

Dünya futbolunun ulduzu, portuqaliyalı Kriştianu Ronaldo İtaliyada onkoloji xəstəlikdən müalicə alan qırğızıstanlı qızı ziyarət edib.

Bu haqda Qırğızıstan Milli Onkologiya və Hematologiya Mərkəzi uşaq onkologiyası şöbəsinin aparıcı elmi əməkdaşı Damira Bayzakova "facebook" səhifəsində yazıb. Ronaldo ilə yanaşı, "Yuventus" klubunun digər oyunçuları Paolo Dibala və Xuan Kuadrado da Turindəki Onkologiya mərkəzində xəstələri ziyarət ediblər.

Bayzakovanın sözlərinə görə, İtaliyada müalicə alan qırğız qızın adı Yunadır. O, sümük sarkomasından əziyyət çəkir. Azyaşlı bir neçə kimya-terapiya kursu da daxil olmaqla artıq müalicənin ən çətin mərhələlərini keçib.



## Endi Mürrey idmanı tərk edir



Peşəkar Tennisçilər Assosiasiyasının (ATP) reytinqində dünyanın birinci tennisçisi olmuş britaniyalı Endi Mürrey bu il karyerasını başa vuracağını bildirib.

2017-ci ilin iyulunda ciddi zədə alan tennisçi 2018-ci ilin yanvarında əməliyyat olunub. O, ötən ilin iyununda korta çıxsa da, "Uimbldon" turnirini buraxmağa məcbur olub. ABŞ açıq Çempionatında ikinci turda məğlubiyyətə uğrayan Mürrey sonuncu görüşünü 2018-ci ilin sentyabrında Çində təşkil olunan turnirdə keçirib.

İdmançı zədə ilə bağlı ağrılarının hələ də davam etdiyini və kortda lazımi səviyyədə oynaya bilmədiyini bildirib.

Qeyd edək ki, Endi Mürrey tennisçi karyerasına 2005-ci ildə başlayıb. O, bu müddət ərzində 45 titul qazanıb və "Böyük dəbilqə" turnirlərində üç dəfə qalib olub. Britaniyalı tennisçi kişilər arasında fərdi yarışlarda yeganə ikiqat Olimpiya çempionu, eləcə də, Devis Kubokunun sahibidir.

## Ukraynalı boksçu bir daha rinqə qayıtmayacaq

Vladimir Kliçko onun boksa qayıdacağı barədə yayılan xəbərlərə münasibət bildirib.

Ağır çəki dərəcəsində sabiq dünya çempionu "Sports İllustrated" nəşrinin jurnalistinə bu barədə açıqlama verib. Tanınmış idmançı rinqə qayıtmaq fikrində olmadığını deyib.

Məlumat üçün bildirək ki, Vladimir Kliçko Tayson Fyuri və Entoni Çeşuaya qarşı son iki döyüşdə uduzduqdan sonra 2017-ci ildə karyerasına son qoyub.

## Tanınmış boksçu ad gününü qeyd etdi

Boks üzrə sabiq dünya çempionu, tanınmış idmançı Roy Consun 50 yaşı tamam olub.

Roy Cons 1988-ci ildə Seul Olimpiadasının gümüş medalına layiq görülüb. Bundan sonra peşəkar karyerasına başlayan idmançı 30 il rinqdə döyüşüb.

Roy Cons dörd divizionda dünya çempionu adını alıb. Karyerası ərzində 66 dəfə qalib gəlib, 9 dəfə məğlub olub. Son döyüşünü 2018-ci ilin fevralında Skott Siqmana qarşı keçirən boksçu onu qələbə ilə başa vurub.

Roy Cons 2015-ci ildə Rusiya vətəndaşlığını qəbul edib.

## Həbs qoyulub

İtaliya məhkəməsi "Barselona"nın futbolçusu Arturo Vidalın Turin şəhərindəki 4 evinə həbs qoyub.

Buna səbəb 31 yaşlı futbolçunun səyahət şirkətinə olan 17 min 45 avro borcunu ödəməməsi olub.

Çilili yarımmüdafiəçinin artıq faizlərlə birlikdə 18 min 849 avro borcu var. Bundan başqa futbolçu 12 min 58 avro məhkəmə xərclərini də ödəməlidi. Vidal qısa zamanda borclarını ödəməsə, evlərin müsadirə ediləcək, hərraca çıxarılacağı bildirilir.

olimpnews.az - sizin saytınız




## Fernando Alonso formula-1-i "Dakar" rallisinə dəyişir

Formula-1 yarışlarının ikiqat dünya çempionu Fernando Alonso "Dakar" rallisində çıxış edə bilər. "Toyota" komandasının meneceri Jan-Mark Forten ispaniyalı pilotun artıq 2020-ci ildə rallidə yolsuzluq avtomobilinin sükanı arxasına keçə biləcəyinə hazır olduğunu hesab edir.

"Biz Alonso ilə bunu həyata keçirməyi sınaya bilərik. Lakin biz bütün danışıqların necə irəliləməsinə və Fernandonun hansı planlarının olacağına baxacağıq. Bilirik ki, bu, həm onun, həm də bizim istəyimizdir. "Toyota" hər şeyi təşkil etməlidir. Düşünürəm ki, bu, mümkündür", - deyə Jan-Mark Forten qeyd edib.

Gənclər və İdman Nazirliyinin kollektivi gənclər və idman nazirinin müavini İsmayıl İsmayılova, əzizi

**Sevda xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının kollektivi gənclər və idman nazirinin müavini İsmayıl İsmayılova, əzizi

**Sevda xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

"Olimpiya dünyası" qəzetinin kollektivi gənclər və idman nazirinin müavini İsmayıl İsmayılova, əzizi

**Sevda xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

Milli Olimpiya Komitəsinin kollektivi gənclər və idman nazirinin müavini İsmayıl İsmayılova, əzizi

**Sevda xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

Respublika Yüksək İdman Ustalığı Məktəbinin kollektivi gənclər və idman nazirinin müavini İsmayıl İsmayılova, əzizi

**Sevda xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

Ağalar Cavadov, Mirsaleh Salahov və Murad Fərzəliyev Güloğlan İsgəndərova, anası

**Hamayıl xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin!

Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-90-54; 564-74-19